# BAYRAM İSGƏNDƏRLİNİN HƏYATI, BƏDİİ YARADICILIĞI VƏ PUBLİSİSTİKASI

SALİDƏ ŞƏRİFOVA

**SALİDƏ ŞƏRİFOVA**

# BAYRAM İSGƏNDƏRLİNİN HƏYATI, BƏDİİ YARADICILIĞI VƏ PUBLİSİSTİKASI

**“Sənətkarın elmi pasportu” – 54**

**Bakı – “Elm və təhsil” – 2024**

**Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 24 iyun 2024-cü il tarixli iclasının (4 saylı protokol) qərarı ilə çapa tövsiyə olunmuşdur.**

**Rəyçilər:** **Tehran Əlişan oğlu Mustafayev**

filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun
Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri

**Mətanət Qüdrət qızı Vahidova**

filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun
Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin
aparıcı elmi işçisi

**ŞƏRİFOVA Salidə Şəmməd qızı.**
**Bayram İsgəndərlinin həyatı, bədii yaradıcılığı və publisistikası. Bakı, "Elm və təhsil", 2024. 80 səh.**

**ISBN 978-9952-581-28-7-0**

**© Salidə ŞƏRİFOVA, 2024**

## *M Ü N D Ə R İ C A T*

**Bayram İsgəndərlinin həyatına qısa ekskurs..........4**

**Bayram İsgəndərlinin bədii yaradıcılığında hekayə janrı...............................................................7**

**Bayram İsgəndərlinin bədii yaradıcılığında nağıl janrı.............................................................24**

**Bayram İsgəndərlinin yaradıcılığında nəzm və mənsur şeirlər..........................................................30**

**Bayram İsgəndərlinin mənsur şeirlərində xalq yaradıcılığına müraciət.........................................48**

**Bayram İsgəndərlinin yaradıcılığında pyeslər........51**

**Bayram İsgəndərlinin publisistikası........................59**

**Nəticə.............................................................................67**

**İstifadə olunmuş ədəbiyyat......................................69**

## BAYRAM İSGƏNDƏRLİNİN HƏYATINA QISA EKSKURS

Jurnalist, yazıçı, dramaturq, publisist Bayram Məmməd oğlu İsgəndərli (İsgəndərov Bayram Məmməd oğlu) 17 iyul 1943-cü il tarixində Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində anadan olub.

Naxçıvan şəhərində Üzeyir Hacıbəyov adına 1 saylı orta məktəbi bitirib. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin məzunudur. Bakı Ali Partiya Məktəbinin dinləyicisi olub. Bayram İsgəndərli 1999-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. O, həm də Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

Bayram İsgəndərli orta məktəbi bitirən kimi, 1960-1961-ci illərdə Qaradağ daş karxanasında və Biləcəri zavodunda əmək fəaliyyətinə başlamışdır. Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra isə Naxçıvan şəhəri 9 saylı məktəbdə müəllim kimi çalışmışdır. 1965-1970-ci illərdə Naxçıvan şəhər xalq maarif şöbəsində metodist kimi əmək fəaliyyətini davam etdirmişdir. 1971-1973-cü illərdə isə Naxçıvan MR Dövlət Teleradio Verilişləri Komitəsinin radio redaksiyasında redaktor, şöbə müdiri olmuşdur. Bayram

İsgəndərli daha sonra Naxçıvan MR Nazirlər Sovetində təlimatçı, Mətbuatda Dövlət sirlərini mühafizə edən Baş İdarənin müvəkkili, Naxçıvan Duz mədənində qazmaqçı, Naxçıvan MR Teleradio Komitəsində baş redaktor, Naxçıvan Özəl Universitetində müəllim, "Lider Media Holdinq" MMC-in "Dublyaj" redaksiyasında redaktor kimi fəaliyyətini davam etdirmişdir.

Bədii yaradıcılığa 1960-cı illərdən başlamış Bayram İsgəndərli (İsgəndərov Bayram Məmməd oğlu) "Bir payız günü" (1981), "Günəş həmişə olacaq" (1984), "Balaca nağılçı" (1988), "Yeddi ilin ayrılığı" (1990), "Vaxtla üz-üzə" (1999), "Sevgi məktubları" (2004), "Qorxaq ayı balası Toxmaq" (2012), "Çil xoruzun aqibəti", "Bu qatar hara gedir?" (2018), "Qarabağdan gələn duman" (2018), "Məni ürəyinizdə axtarın" (2023), "Uşaqlar üçün pyeslər" (2023) və s. kitabların müəllifidir.

Publisist fəaliyyəti ilə məşğul olan Bayram İsgəndərli "Araz səddindən Təbrizəcən", "Özü haqqında danışmağı sevməyən adam", "Mən zəmanət verərəm", "Yollar qovuşanda", "Mənim tanıdığım Müzəffər Nəsirli", "Dünyanın bəzəyi", "Onu yenidən tanıdım", "Mənəvi saflığa çağırış", "Ölümdə sevgi", "Dilim-Varlığımın nişanəsi", "Halal əmə-

yin bəhrəsi”, “Gecikmiş təbrik”, “Nəğməyə bənzəyən ömür”, “Dostum şair Məmməd Tahirə məktub”, “Bunlar kiçik məsələlər deyil...”, “Apostrof gərək deyilsə”, “Yazıçılıq asan iş deyil”, “Türkiyəli qonaq”, “Sən vətənə qovuşdun”, “Yaddaşımda qalan dost”, “İnsana insanı sevmək qalacaq, yaxud, şair Hüseyn Bağıroğlu haqqında bir neçə söz”, “Səni çoxdan axtarmalı idik, yaxud şair Vaqif Kərimova məktub”, “Sözə yazığım gəlir”, “Biz də o sevinci yaşayırıq”, “Ölü də yuxu görür”, “Yaddaş, yaxud ürəyimdən keçən arzular”, “60 illik yubileyə dost sözü”, “Qəlbinizin səsi həmişə təmiz qəlblərə çatsın”, “Səmimiyyətin işığı” və s. publisistik yazıların da müəllifidir.

Bayram İsgəndərli böyüklər və uşaqlar üçün “Gəlmələr”, “Boz tülkü haqqında nağıl”, “Siçanların hiyləsi”, “Yalanlara inanmayın”, “Özgəyə quyu qazan”, “Cırtdanın yeni sərgüzəşti”, “Xeyirxah kirpi”, “Meşədə əhvalat”, “İki təlxək, bir keçəl”, “Ayı mərz çəkməkdən qaçdı” və s. pyeslər də qələmə almışdır.

Bayram İsgəndərlinin hekayələri, mənsur şeirləri, pyesləri və s. dövrü mətbuatda (qəzet və jurnallar), ədəbi almanaxlarda nəşr edilmiş və edilməkdədir.

# BAYRAM İSGƏNDƏRLİNİN BƏDİİ YARADICILIĞINDA HEKAYƏ JANRI

Bayram İsgəndərlinin bədii nəsrində hekayə janrı geniş yer tutmaqdadır. O, həm böyüklər üçün, həm də uşaqlar üçün hekayələr yazır. Bayram İsgəndərli böyüklər üçün qələmə aldığı "Qövsi-qüzeh", "Bir payız günü", "Salaspilsdə gecə", "Dağlar çağırır məni", "Güllər solmadı", "Ağappaq üfüq", "Bir dəniz vardı, bir də", "Güllü nənə, çinar və o", "İllər keçsə də", "Alagöz", "Bir ovuc torpaq", "Gömgöy səma", "Plutarxın ölümü" və s. hekayələr müəllifidir. Onun hekayələri tədqiqatçıların diqqətindən yayınmamışdır. AMEA-nın müxbir üzvü, professor Tehran Əlişanoğlu "uzun yaradıcılığı boyu daim kölgədə qalmış" yazıçının hekayə yaradıcılığına toxunaraq qeyd edir ki, "Yaşanmamış, itirilmiş ömrün mənbəyi sosial mühitdir; amma Bayram İsgəndərlinin hekayələrində sosial düşüncə bilavasitə yoxdur, məhz "yaşanmış"ın, İnsan fərdinin içindən fiksə olunur. Şəxsən mənə bu tərz Anton Çexovun son mərhələ, impressionist hekayələrinin təsiri kimi göründü". [1]

---

[1] Tehran Əlişanoğlu. Kitablar aləmində nələr baş verir // https://literature.az/?page=339&newsId=115679&lang=aze

Bayram İsgəndərlinin uşaqlar üçün qələmə aldığı hekayələr xüsusi əhəmiyyət kəsb edirlər. Yazıçının uşaqlar üçün qələmə aldığı hekayələrdə uşaqların təbiətə, heyvanlara, hadisələrə, əşyalara münasibətlərindəki qeyri-adi cəhətlər açıqlanır. Məsələn, Bayram İsgəndərlinin körpə fidanların maraqlı hərəkətlərindən, söhbətlərindən bəhs edən "Balaca nağılçı" (1988) hekayələr toplusu bu silsilədəndir. Bayram İsgəndərlinin "Qorxaq ayı balası Toxmaq" (2012) hekayələr toplusunda uşaqlar üçün qələmə alınmış hekayələrdə ağaclar, güllər, çiçəklər, arılar və s. uşaqlara məxsus poetik bir dillə nəql edilir. Hekayələr toplusunda yer alan "Araz yaxınlaşıb insanlara", "Cızıq cəzası", "Qonurca bal axtarır", "Tüstü borusunda leylək yuvası", "Quşəppəyi", "Bir babam var", "Bir qala var – Əlincə", "Yuva", "Oğru qarğa", "Ədilağa gölü" və s. hekayələr uşaqların dünyanı olduğu kimi dərk etmələrinə yardım edir.

Bayram İsgəndərlinin müəllifi olduğu hekayələrdə cəmiyyəti düşündürən sosial problemlər, insanların üzləşdikləri çətinliklər və s. yer almaqdadır. Məsələn, Bayram İsgəndərli "Plutarxın ölümü" hekayəsinin problematikasında cəmiyyətimiz üçün aktual olan problemlərin açıqlanmasına nəzər salır. Belə ki, yazıçı Qafqazdakı ermənilərin ermәni-

ləşmiş albanlar olması məsələsinə bədii dillə eyham etməsi maraq doğurur: "Demədim ki, o qız albanlardandır? Sən də dedin ki, nə olsun, onlar da ermənilləşiblər? Mən isə dedim ki, yox, biz bura köçüb gələndən sonra onları zorla erməniləşdirmişik, albanlar da türkdürlər. Damarlarında türk qanı axır..." [2]

Bayram İsgəndərli hekayənin problematikasında ermənilərin Qafqaza gəlmə olmalarını açıq-aydın şəkildə səsləndirir. Erməni Qriqorun öz dili ilə onların Qarabağa, Ermənistana, daha qısası Qafqaza gəlmə olmaları açıqlanır: "Hamımızı bu yerlərdən qovacaqlar. Yeganə çıxış yolumuz ulularımızın gəldiyi yerə köçüb getmək olacaq. Köçüb gəldiyimiz yer də Allah bilir haradır? Alimlərin biri deyir ki, guya biz Balkanlardan, bir başqası deyir ki, Hindistandan, bir başqası da deyir ki, Şimali Fərat hövzəsindən gəlmişik. Deyirlər də... Nə eləsinlər, bir şey deməlidirlər, ya yox? Əslində, xaç haqqı, heç bilmirik biz haralıyıq, haradan gəlmişik, nə millətik... Bir onu bilirik ki, hansı yerdə yaşasaq, oranı qamarlayaq, hər şeyinə yiyələnək. Vaxtı ilə burada – Qərbi Azərbaycandakı "Arman" yaylasında "Arman" adlı türk

[2] Bayram İsgəndərli. Plutarxın ölümü // https://edebiyyatqazeti.az/news/proza/1842-plutarxin-olumu

tayfaları yaşayıb. Yaşamayıb? Hə, yaşayıb. Onlar əvvəlcə atəşpərəst olublar, sonra xristianlığı qəbul ediblər. Biz "hay"lar da bu yerlərə köçüb gəlmişik. Sonra arman – ərmən türk tayfalarının dinini, tarixini, mədəniyyətini mənimsəmişik. Yerli tayfaları isə Quzey Azərbaycanına, yəni müasir Azərbaycan Respublikasının ərazilərinə sıxışdırmışıq, bir qismini isə assimilyasiyaya uğratmışıq". [3]

Bayram İsgəndərlinin "Gömgöy səma" adlı hekayəsinin problematikasında valideynlərin övladlarının talelərinə yersiz müdaxilələri tənqid edilir. Aqronom olmaq arzusu ilə yaşayan Bəbirin ata-anasının istəyi ilə həkim olması, onların təkidi ilə rüşvət alması və buna görə məhkum edilməsi bədii dillə təqdim edilir. Bəbirin hekayənin sonunda arzusunun təqdim edilməsi müəllifin valideynlərin uşaqlarının istək və arzularına müdaxilə etməmələrinə çağırışıdır: "Və birdən-birə istədi ki, uşaq olsun, gül parçası kimi təmiz və ləkəsiz". [4]

Şair Məmməd Tahirin Bayram İsgəndərlinin hekayə yaradıcılığının problematikasını dəyərləndirərək onu doğru

[3] Bayram İsgəndərli. Plutarxın ölümü // https://edebiyyatqazeti.az/news/proza/1842-plutarxin-olumu
[4] Bayram İsgəndərov. Gömgöy səma. Bir payız günü (Hekayə və mənsur şeirlər). Bakı, Yazıçı, 1981. 78 səh. səh.66.

vurğulayır ki, "B.İsgəndərli öz yaradıcılığında həmişə problematik mövzulara toxunur. Ən kiçik hekayələrində belə hansısa problemə toxunur, onu təhlilə çəkir, son anda nəticəni oxucuya həvalə edir". [5]

Bayram İsgəndərlinin uşaqlar üçün qələmə almış olduğu hekayələrin problematikası aktual mövzuları əhatə edir. Yazıçı "Palıd qozası" adlı hekayəsində olduğu yerdə qərar tuta bilməyənlərin, doğma yerlərdən tez can qurtarmağa çalışanların aqibətini bədii dillə canlandırmağa qadir olur. Yeni məkana, sənə doğma olmayan yerlərə adaptasiya olmağın çətin, məsuliyyətli, keşməkeşli bir proses olmasına işıq salır. Palıd qozasının şəhərdə yaşamaq arzusu üçün keçdiyi məşəqqətli yolları incələməyə qadir olan Bayram İsgəndərli, hər bir körpənin öz anasının qayğısı ilə böyüməsini hekayənin sonunda təqdim edir: "Günlər ötürdü. Körpə palıd şəhərin çirkli havasında əzab çəkə-çəkə böyüyürdü və yamanca darıxırdı. Elə hey anası qoca palıdı, meşəni arzulayırdı. Meşənin tərtəmiz havasını arzulayırdı.

Körpə palıdın kədərini külək duydu, yerə enib onu ehmalca qanadlarının üstünə aldı. Meşəyə sarı üz tutdu. Uçub,

---

[5] Məmməd Tahir. Ön söz əvəzi. Bayram İsgəndərli. Sevgi məktubları. Bakı, "Nurlan", 2004. 32 səh. səh.3.

uçub meşəyə çatdı. Körpə palıdı qoca palıda verdi. Qoca palıd körpəsini sinəsinə sıxdı. Onu bulağın kənarına, güntutan yerə qoydu. Körpə palıd tərtəmiz havanı uda-uda, günəşin işığını içə-içə böyüdü, qol-budaq atdı, anası palıd kimi nəhəngləşdi...” Bayram İsgəndərli həm bir ziyalı, həm də bir valideyn kimi hər bir körpə fidanın, uşağın valideynlərinin himayələrində boya-başa çatmalarını, böyümələrini, həyatda özlərinə yer tuta bilmələrini qabartmasında haqlı olmasını bədii dillə təqdim edir: “Palıd qozası diksinib oyandı və nədənsə ilk dəfə günəşi görmək istədi. Ona elə gəldi ki, indicə başını qaldıracaq və günəşi görəcək”.

Bayram İsgəndərlinin “Qoz ağacı” adlı hekayəsinin problematikasında uşaqlar üçün faydalı, elmi məlumatların yer alması maraq doğurur. Uşaqlar üçün maarifləndirici rolunda çıxış etməyi bacaran bu hekayədə ağaclar haqqında maraqlı məqamların yer alması nəzərdən qaçmır. Hekayənin qəhrəmanı Sehrşənin qoz ağacından qorxmasına aydınlıq gətirən yazıçı yalnız qoz ağacı haqqında deyil, həm də digər ağaclar haqqında maraqlı məlumatlar verə bilir: “...elə meyvə ağacı yoxdur ki, əkən barından dadmasın. Ancaq bir iş var ki, meyvə ağacları müxtəlif vaxtlarda məhsul verir, –

dedi, – biri tez, biri gec. Məsələn, tut, şaftalı ağacları üç-dörd ilə, qoz ağacı isə bir az gec bar verir. On-on iki ilə...”

Yazıçının “Hədiyyə” adlı hekayəsində duz mədənində aparılan işlər haqqında məlumatların verilməsi uşaqlar üçün maraqlı faktlar kimi dəyər kəsb edir. Hekayəni mütaliə edən uşaqlar duz mədənində baş verən iş prosesləri haqqında qısa da olsa təsəvvür əldə etməyə nail olurlar: “Şaxtada – yer altında yüzlərlə yol var. Bu yolların ucu-bucağı bilinmir... Bəzən yeraltı sular bu yollara axır, daş duz suda əriyib həll olur, sonra tədricən çöküb kristala çevrilir. Bu kristallar elə parlaq, elə şəffafdır ki, günəş işığında çıraq kimi yanır...

...Naxçıvandakı duz mədəninin çox qədim tarixi var. Burada ibtidai insanların duz çıxardıqları “saraylar” tapılıb... Deyilənə görə, çox-çox qədimlərdə Naxçıvanda çıxarılmış daş duz dəvə karvanları ilə Şərq ölkələrinə göndərilirmiş. Büllur kimi şəffaf olan bu duz Naxçıvanın şöhrətini daha da artırmışdır”.

“Araz yaxınlaşıb insanlara” adlı hekayədə müəllifin uşaqlarda tarixi məkanlara diqqət yönəltməyə cəhdləri maraq doğurur: “Hamamdır, bala. Qədim vaxtlarda tikilib.

Təxminən iki yüz əlli ilə əvvəl. İsmayıl xan hamamı deyərlərmiş buna”. [6]

Hekayədə millətin tarixi ilə bağlı bir çox məqamlara aydınlıq gətirilir. Məsələn, nəvənin babasına ünvanladığı “Baba, bu qoçları kim düzəldib?” sualına babanın verdiyi cavab xalqın keçdiyi keşməkeşli tarixi yolu oxucunun gözü önündə canlandırır: “Ulu babalarımız.... Axı o vaxtlar qoyun müqəddəs hesab edilib. Ona görə də onu bütləşdiriblər... Daşdan qoç yonub ona sitayiş ediblər”. [7]

Bayram İsgəndərlinin “Bir qala var – Əlincə” adlı hekayəsində xalqın tarixi yaddaşında yer almış Əlincə qalası haqqında məlumatın bədii dillə uşaqlara təqdim edilməsi təqdirəlayiqdir: “Bir qala var: Əlincə. Durar dağlar üstündə. Durar vüqarla. Boylanar uzaq-uzaq əsrlərə. Uzaq-uzaq əsrlərdən bir səs qopar, bir ün gələr. Əlincə də onu dinlər”. [8]

Uşaqlar üçün qələmə alınmış hekayələrdə ədəbiyyatımıza olan sevgi və ehtiram də təbliğ edilməsi diqqətdən yayınmır. Məsələn, yazıçının “Çıxdı buz üstə qoçaq” adlı he-

---

[6] Bayram İsgəndərli. Araz yaxınlaşıb insanlara. Qorxaq ayı balası Toxmaq. Bakı, “Elm və təhsil” nəşriyyatı, 2012. 84 səh. səh.5.
[7] Bayram İsgəndərli. Araz yaxınlaşıb insanlara. Qorxaq ayı balası Toxmaq. Bakı, “Elm və təhsil”, 2012. 84 səh. səh.6.
[8] Bayram İsgəndərli. Bir qala var – Əlincə. Qorxaq ayı balası Toxmaq. Bakı, “Elm və təhsil”, 2012. 84 səh. səh.17.

kayəsinin adı bizə Azərbaycan şairi M.Ə.Sabirin “Uşaq və buz” şeirini xatırladır. Hekayənin problematikasında da dahi Sabirin bu şeirinin təqdimi ilə üzləşirik. Hekayədə Azərbaycan satirasının banisi Mirzə Ələkbər Sabirin

“Dərsə gedən bir uşaq
Çıxdı buz üstə qoçaq”

– misrasının səsləndirilməsi ilə yanaşı, uşaqlara bəzi sözlərin izah edilməsi də nəzərdən qaçmır:

“– Kim? Qoçaq? Qoçaq kimdir? – deyir.

– Qoçaq, qoçaq, – Gülşən söz axtarır. – Yəni qorxmayan, qorxu-hürkü bilməyən”. [9]

Hekayələrində nəzm nümunələrinə yer ayıran Bayram İsgəndərli məhz bununla qələmə aldığı hekayənin dilinə ağırlıq gətirmir. Əksinə qələmə aldığı hekayələrinin maraqlı olmasına zəmin yaradır. Çatdırmaq istədiyi fikri nəzm nümunəsi ilə daha da təkmilləşdirərək təqdim edir. Məsələn, “Güllü nənə, çinar və o” adlı hekayəsində yazıçının istifadə etdiyi nəzm nümunəsinə diqqət edək:

“Ey qırmızı atlılar,
Qırmızı qanadlılar.

[9] Bayram İsgəndərli. Çıxdı buz üstə qoçaq. Qorxaq ayı balası Toxmaq. Bakı, “Elm və təhsil”, 2012. 84 səh. səh.52.

Çapın, biçin düşməni,
Yox eləyin siz qəmi".

Bayram İsgəndərli bu şeirin mahiyyətini elə hekayəsində oxucu üçün aydınlaşdırmışdır: "«Qırmızı at» məsələsini məktəbin ədəbiyyat müəllimi Yaqub fikirləşib tapmışdı. Demişdi ki, qoy davaya gedənlər kənddən rayon mərkəzinə qırmızı at üstündə getsinlər. Çünki qırmızı qana-qandır, ölümə-ölüm". [10]

Bayram İsgəndərli "Plutarxın ölümü" adlı hekayəsində də nəzm nümunəsinə müraciət edir. Yazıçı burada fikirlərini daha əhatəli şəkildə təqdim etmək üçün bayatıya müraciət edir:

"Əziziyəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ!" [11]

Və ya hekayənin başqa bir hissəsində Araz çayı ilə bağlı nəzm nümunəsini səsləndirməsi də diqqətdən yayınmır:

"Xan Araz, oy, xan Araz,

[10] Bayram İsgəndərov. Güllü nənə, çinar və o. Bir payız günü (Hekayə və mənsur şeirlər). Bakı, Yazıçı, 1981. 78 səh. səh.40.

[11] Bayram İsgəndərli. Plutarxın ölümü // https://edebiyyatqazeti.az/news/proza/1842-plutarxin-olumu

Sinən dəftər, can Araz,

Götür əlinə qələm,

Dərdlərimi birər yaz.

Xan Araz, oy, xan Araz...” [12]

Bayram İsgəndərli qələmə aldığı hekayələrinin dilində atalar sözləri və məsəllərdən geniş şəkildə istifadə edir. Məsələn, işi nəticəsinə görə qiymətləndirmək mənasında işlədilən “Cücəni payızda sayarlar” [13] atalar sözlərinin işlənməsinə Bayram İsgəndərlinin “İllər keçsə də” adlı hekayəsində rastlaşırıq.

Müəllif “Bir ovuc torpaq” adlı hekayəsində isə hamının sevdiyi bir bayatını səsləndirir:

“Əzizim Vətən yaxşı,

Geyməyə kətan yaxşı,

Gəzməyə qərib ölkə...”

Maraqlı məqam isə müəllifin bayatının sonluğunu olduğu kimi deyil, özünün müəllif təxəyyülündən keçirərək dəyişikliyə uğradaraq təqdim etməsidir. Bayram İsgəndərli bunu hekayəsində belə açıqlayır: “Bayatının son misrasını

---

[12]Bayram İsgəndərli. Plutarxın ölümü // https://edebiyyatqazeti.az/news/proza/1842-plutarxin-olumu

[13] Bayram İskəndərov. İllər keçsə də... Bir payız günü (Hekayə və mənsur şeirlər). Bakı, Yazıçı, 1981. 78 səh. səh.46.

“Qalmağa Vətən yaxşı” dedi. “Ölməyə” sözünü dilinə gətirmək istəmədi. Yox, o yaşamaq istəyirdi. Özü də bu dağlar arasında. Doğma kəndlərində”. [14]

“Fikir yaman şeydir” adlı hekayəsində də Bayram İsgəndərli lirik növün ən geniş yayılmış bayatı janrına müraciət edir:

Gülü ləkə əkmişəm,
Dibinə su tökmüşəm.
Gözəllərin içində
Təkcə səni seçmişəm. [15]

Yazıçı “Bənövşə ömrü” adlı hekayəsində mərasim nəğməsi olan ağılara da yer ayırmışdır. Müəllif qocalar evinə atılmış, bənövşə görmək arzusu ilə bahar arzulayan Zəhra arvadın acı taleyini göz önündə canlandırır:

Burdan bir atlı getdi,
Atın oynatdı getdi.
Gün kimi şəfəq saldı,
Ay kimi batdı getdi. [16]

---

[14] Bayram İsgəndərov. Bir ovuc torpaq. Bir payız günü (Hekayə və mənsur şeirlər). Bakı, Yazıçı, 1981. 78 səh. səh.58.
[15] Bayram İskəndərov. Fikir yaman şeydir. Yeddi ilin ayrılığı (Hekayələr). Bakı, Yazıçı, 1990. 128 səh. səh.9.
[16] Bayram İskəndərov. Bənövşə ömrü. Yeddi ilin ayrılığı (Hekayələr). Bakı, Yazıçı, 1990. 128 səh.

Bayram İsgəndərli uşaqlar üçün qələmə aldığı əsərlərində tez-tez atalar sözləri və məsəllərə müraciət edir. Məsələn, uşaqlar üçün qələmə aldığı "Bir qala var – Əlincə" adlı hekayəsində atalar sözlərinə müraciət etməsi diqqətdən yayınmır. Yazıçı "qarı düşmən dost olmaz" atalar sözünə müraciət edərək bədii nümunədə vurğulamaq istədiyi fikri qabardır: "Oğuz zamanında bir ər qopub. Sərukun ucundan Göycə dənizinədək bir yurd salıb. Neçə-neçə qala qurub bu yerlərdə. Bilib ki, "qarı düşmən dost olmaz"".

"İlqarın səhvi" adlı hekayəsində də müəllif "Gecənin xeyrindən gündüzün şəri yaxşıdır" [17] atalar sözündən istifadə edir. Müəllifin hekayələrində istifadə etdiyi atalar sözləri və məsəllər sınaqdan çıxmış, xalq təcrübəsinin ümumiləşdirilmiş ifadəsi kimi gənclərin, uşaqların təlim-tərbiyəsinə müsbət təsir göstərir. Atalar sözlərində təbliğ olunan düzlük, mərdlik, müdriklik və s. kimi insani keyfiyyətlər əksini tapmaqdadır.

Bayram İsgəndərlinin uşaqlar üçün qələmə aldığı hekayələrində işlətdiyi terminlər diqqəti cəlb etməkdədir. Yazıçının "Üzüm tənəyi" adlı hekayəsində terminlərin işlədil-

---

[17] Bayram İskəndərov. İlqarın səhvi. Günəş həmişə olacaq. Bakı, Gənclik, 1984. 72 səh. səh.26.

məsi, onların izahatı maraq kəsb edir. Yazıçı qələmə aldığı hekayəsində uşaqlar üçün zəruri tələbdən irəli gələn məqam kimi işlətdiyi terminə aydınlıq gətirir. Müəllif hekayədə istifadə etdiyi terminin izahını dialoq vasitəsilə açıqlayır: "Sahil babasının əllərinə maraqla baxır, sanki ilk dəfədir o əlləri görür. Sonra əsgər kimi sıra ilə düzülən beton dirəkləri göstərib soruşur:

– Baba, bəs bunlar nədir? Məftillər nə üçün onlara bağlanıb?

Babası onun sualını cavabsız qoymur.

– Şpaler deyirlər bunlara, duzlu balam. Məftilləri bu dirəklərə bağlayırıq. Üzüm tənəklərini isə bu məftillərə. Şpalerə qaldırılmış kollar günəşin işığından gen-bol istifadə edirlər. Ona görə də məhsul bol olur". [18]

Bayram İsgəndərlinin qələmə aldığı hekayələrində obrazlar əsasən, müasir dövrün insanlarının obrazıdır. Müəllif tarixi keçmişə üz tutmağa can atmır, müasiri olduğu cəmiyyətin insanlarının obrazlarını, ya da ki, tanıdığı şəxslərin prototiplərini yaratmağa cəhd edir.

---

[18] Bayram İsgəndərli. Üzem tənəyi. Qorxaq ayı balası Toxmaq. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2012. 84 səh. səh.54.

“Güllü nənə, çinar və o” adlı hekayəsində Bayram İsgəndərlinin təqdim etdiyi ana obrazı ilə rastlaşırıq. Ümidini itirməyən, övlad sevgisi ilə alışıb yaşayan ana obrazı ilə...

Bayram İsgəndərli Güllü ananın simasında oğullarını müharibəyə yola salmış, müharibədən övladları dönməyən anaların ümumiləşdirilmiş obrazını yaradır. Müəllif “Güllü nənə iyirmi doqquz il idi ki, 9 May qələbə gününü belə gözləyirdi. İyirmi doqquz il idi, inanmışdı ki, oğlu ayrı gün yox, məhz bu gün davadan qayıdacaq”. [19] Güllü nənənin oğlu İdrisin ölümü ilə barışmaması, iyirmi doqquz il onu gözləməsi, məhz anaların övlad itkisi ilə barışa bilməmələrini əks etdirir: “...ay bala İdrisin pal-paltarını səliqə ilə bük, içinə naftalindi-nədi, ondan qoy, papağını əzmə, yer-yemişi də bura gətir. Başına döndüyümün gəlməyi gələn bayrama qaldı”. [20]

Bayram İsgəndərlinin “Balaca nağılçı” adlı hekayələr toplusunda təqdim etdiyi obrazların bir qismi öz övladlarının prototipləridir. Məsələn, “Çıxdı buz üstə qoçaq”, “İnanmırsan gözlərimə bax” adlı hekayələrində müəllif qızı Gül-

---

[19] Bayram İsgəndərov. Bir payız günü (Hekayə və mənsur şeirlər). Bakı, Yazıçı, 1981. 78 səh. səh.43.
[20] Bayram İsgəndərov. Bir payız günü (Hekayə və mənsur şeirlər). Bakı, Yazıçı, 1981. 78 səh. səh.44.

şənin, "Bacısına oxşamaq istəyir Nurşən", "Nurşənin ad günü", "Nurşənin lalələri", "Yağış kəsdi, ay ana", "Yarasa məni yeyəcək", "Ay aparacaq məni", "Sən də yekəl, ay nənə", "Qoyunlar kövşək vurur", "Mən xəstəyəm" adlı hekayələrində qızı Nurşənin, "Arılar və Rövşən", "Tilova balıq düşdü", "Göyərçinlər niyə yaxına qonmurlar" adlı hekayələrində isə oğlu Rövşənin obrazlarını yaradır.

Bayram İsgəndərlinin uşaqlar üçün qələmə aldığı hekayələrində obrazlar həm məhdud, həm də geniş mənada təqdim edilir. Yazıçının "Palıd qozası" adlı hekayəsində təqdim edilən surətlərin məhz geniş mənada təqdim edilməsinin şahidi oluruq. Burada müəllif palıd qozasını, yəni qeyri-insani varlığı təqdim edir. Bayram İsgəndərlinin "Palıd qozası" adlı hekayəsində palıd qozası müəllif ideyalarının bədii təfəkkürünün təzahür forması kimi əksini tapır.

Bayram İsgəndərli "Qu quşları" adlı hekayəsində də Qu quşunu surət kimi təqdim etməklə, aşılamaq istədiyi ideyalarının bədii təfəkkürünün təzahür forması kimi əksini tapdığının bir daha şahidinə çevrilirik. Yazıçı Kürün sahilində ağ qu quşlarının üzləşdiyi fəlakətləri ümumbəşəri faciə kimi təqdim edə bilir: "Ağ ana qu quşu al qana boyanmışdı...

...Perikmiş qu quşları göydə həyəcanla uçurdular. Sonra hiss elədilər ki, daha ana qu onlara qoşula bilməyəcək, daha onlarla mavi göy üzündə uçmayacaq. Öz nəğmələrini oxumağa başladılar: «Zınn, zınn, zınn...»".

Bayram İsgəndərli yalnız qu quşlarının faciəsini təsvir etmir, həm də ağ ana qu quşunun simasında anasızlığın nə olmasına aydınlıq gətirir. Müəllif anasızlığın ağır bir dərd olmasını bədii dillə açıqlayır.

# BAYRAM İSGƏNDƏRLİNİN
# BƏDİİ YARADICILIĞINDA NAĞIL JANRI

Uşaqlar üçün nağılların qələmə alınmaması son dövr ədəbiyyatımızda bir problem kimi yer tutmaqdadır. Nağıllar dedikdə isə, ilk növbədə şifahi xalq ədəbiyyatında epik növün həcmcə böyük janrı olan nağıllar yada düşür. Yazılı ədəbiyyatda nağıl janrına müraciət edən Bayram İsgəndərli bu sahədəki boşluğu qismən, yəni cüzi şəkildə doldurmağa cəhd edir. Nağıl janrına olan həvəsi nağıla olan sevgidən irəli gəlməsini özü nəşr etdirdiyi kitablarının "Ön söz əvəzi"ndə aydınlıq gətirir:

"Bütün uşaqlar kimi, mən də uşaq olanda nağılı sevirdim. Lakin anam mənə nağıl danışmadı. Harada idi vaxtı? On bir uşağı böyüdüb tərbiyə etmək asan deyildi axı...

...Mənsə nağıl istəyirdim. Anam mənim nağıl payımı verə bilmədi; canından, qanından, yuxusuz gecələrindən pay verdi...

Mən nağılsız böyüdüm". [21]

---

[21] Bayram İsgəndərli, Bu qatar hara gedir? (Hekayələr). Bakı, "Elm və təhsil", 2018. 200 səh. səh.3.

Müəllif sanki nağılsız böyüdüyü uşaqlığı qaytarmaq, onu yaşamaq baxımından, uşaqlar üçün nağıllar qələmə almağa başladı. Bununla da, uşaqlıq dövründəki nağıl istəyini, nağılla bağlı boşluğu qələmə aldığı nağıllarla doldurmaq istədi. Ədəbiyyatımızda uşaqlar üçün gözəl nağıl nümunələri qələmə aldı. Onun qələmə aldığı "Çil xoruzun aqibəti", "Qorxaq ayı balası Toxmaq" və s. nağıllar nağıl janrında qələmə alınmış kamil nümunələrdir. Müəllif təsvir etdiyi hadisələri, insanlara xas məxsusi əlamət və xüsusiyyətləri heyvanlar və ya əşyalar üzərinə köçürməklə epik lövhələr yarada bilir.

Bayram İsgəndərlinin uşaqlar üçün qələmə aldığı əsərlərin problematikası tərbiyəvi, didaktik əhəmiyyət kəsb etməsi ilə diqqəti cəlb edir. Məsələn, yazıçının "Çil xoruzun aqibəti" adlı nağılında yazıçı uşaqların təlim-tərbiyəsinə müsbət təsir edəcək fikir və ideyalar səsləndirilməkdədir. Valideynlərin övladlarının təlim-tərbiyəsində böyük rol oynamaları da nağılda əksini tapır: "Çil xoruzun ata-anası ona tülkünün hiyləgərliyindən, çaqqalın acgözlüyündən, cana-

varın yırtıcılığından çox şeylər demişdilər. Qarapəncənin qoçaqlığından isə ayrıca söz açmışdılar”. [22]

Bayram İsgəndərli “Çil xoruzun aqibəti” adlı nağılın problematikasında körpələrimiz üçün ev heyvanlarının gərəkli olması amilini qabarda bilir. Məsələn, evlərdə itlərin, pişiklərin saxlanılmasının əhəmiyyəti uşaqlara bədii dillə çatdırılması təqdirəlayiqdir. Yazıçı, təsvir etdiyi “Qarapəncə”nin, “Məstan”ın həyət-bacanı qorumalarını təqdim edir. Yazıçı Qarapəncəni “...gecələr hamı şirin yuxuda olanda o yatmır, həyət-bacanı qoruyur. O olmasa, canavar, tülkü, çaqqal toyuq-cücələrə elə bir toy tutarlar ki...” [23] deyə təsvir edir. Məstanı isə “bu pişik evdəki siçanları tutur, cücə oğrularına – qarğalara göz verib işıq vermir. O olmasaydı həyətdə bir dənə də cücə qalmazdı” [24] kimi fikirlərlə təqdim edir.

Bayram İsgəndərlinin “Çil xoruzun aqibəti” nağılı oxuculara nağıl janrının bütün xüsusiyyətlərini özündə əks etdirən nağıl nümunəsi kimi diqqətə çatdırılır. “Çil xoruzun

---

[22] Bayram İsgəndərli. Çil xoruzun aqibəti (Nağıl). Bakı, “Elm və təhsil”, 12 səh. səh.1.
[23] Bayram İsgəndərli. Çil xoruzun aqibəti (Nağıl). Bakı, “Elm və təhsil”, 12 səh. səh.2.
[24] Bayram İsgəndərli. Çil xoruzun aqibəti (Nağıl). Bakı, “Elm və təhsil”, 12 səh. səh.3

aqibəti" adlı nağılı nağıllarımıza xas olan "Biri vardı, biri yoxdu" kimi giriş sözü ilə təqdim edilir. Yazıçı "Biri vardı, biri yoxdu, bir Çil xoruz vardı. Bu xoruz çox lovğa idi. Ona elə gəlir ki, hər şeyi bilir, hər şeyi bacarır..." [25] şəklində qələmə aldığı nağılını uşaqlara təqdim edir.

Bayram İsgəndərli uşaqlar üçün qələmə aldığı nağıllarında nəzm nümunələrindən də istifadə edir. Bayram İsgəndərli "Çil xoruzun aqibəti" adlı nağılında özünün qələmə aldığı şeirlərini təqdim edir:

Ağaclar açıb çiçək,
Geyinib təzə köynək...
Uçur göydə kəpənək,
Yaz gəlib, a, yaz gəlib. [26]

"Çil xoruzun aqibəti" nağılında müəllifin "Nə işin vardı cığırda, it də tutub çığırda", "Arığın nə işi cığırda, çaqqal onu çığırda" və s. şəkildə işlədilən məsəli nağılda işlətməsi diqqətdən yayınmır. Müəllif "Nə işin vardı cığırda, çaqqal səni çığırda"[27] məsəlini təqdim edərək, uşaqlarımıza xud-

[25] Bayram İsgəndərli. Çil xoruzun aqibəti (Nağıl). Bakı, "Elm və təhsil", 12 səh. səh.1.
[26] Bayram İsgəndərli. Çil xoruzun aqibəti (Nağıl). Bakı, "Elm və təhsil", 12 səh. səh.5.
[27] Bayram İsgəndərli. Çil xoruzun aqibəti (Nağıl). Bakı, "Elm və təhsil", 12 səh. səh.12.

binliyin, sözə qulaq asmamağın acı aqibətlə bitəcəyini nəzərə çatdırır.

Bayram İsgəndərlinin “Çil xoruzun aqibəti”, “Qorxaq ayı balası Toxmaq” və s. nağıllarındakı personajlar müxtəlif heyvanlar, quşlardır. Məsələn, Çil xoruz, Qarapəncə, Məstan kimi heyvan və quşlar “Çil xoruzun aqibəti” hekayəsinin personajlarıdır. Yazıçı nağılda təkəbbürlü, özündən razı Çil xoruzun surətini təqdim edir. Onun özündən razı olmasını poetik dillə təqdim edir: “...öz hikkəsini, təkəbbürünü sanki bütün dünyaya bildirmək istəyir:

Məndən qorxur toyuq-cücə,
Məstan pişik, Qarapəncə
Tülkü, çaqqal, bəs necə
Çil xoruzam, a, Çil xoruz![28]

Müəllif Qarapəncə və Məstanı isə dostlarını darda qoymayan surət kimi təbliğ edir, bununla da uşaqları yaşıdlarını, dostlarını, əzizlərini etdikləri əməllərə, səhvlərinə görə darda qoymamalarına çağırış edir. Məstan və Qarapəncənin Çil xoruzu çaqqalın dişləri arasından qurtarmaları səhnəsi bunu əks etdirir: “Çaqqalın dişləri Çil xoruzun ətinə necə

[28] Bayram İsgəndərli. Çil xoruzun aqibəti (Nağıl). Bakı, “Elm və təhsil”, 12 səh. səh.8.

batdısa ağrıdan gözlərinə qaranlıq çökdü, az qaldı nəfəsi kəsilsin. Var gücü ilə qışqırdı: “Kömək edin, kömək edin!”

Qarapəncə ilə Məstan bu səsi eşitdilər, özlərini onun köməyinə çatdırdılar”. [29]

[29] Bayram İsgəndərli. Çil xoruzun aqibəti (Nağıl). Bakı, “Elm və təhsil”, 12 səh. səh.10-11.

# BAYRAM İSGƏNDƏRLİNİN YARADICILIĞINDA NƏZM VƏ MƏNSUR ŞEİRLƏR

Bayram İsgəndərlinin bədii yaradıcılığında poetik nümunələrə yer verməsi maraq kəsb edir. Bayram İsgəndərlinin nəzmində heca vəznində, sərbəst şeir şəklində qələmə alınmış şeirlərin, bayatıların həm problematika baxımından zəngin olması, həm də nəzmin əlamətlərinə sənətkarlıqla riayət edilməsi diqqətdən yayınmır. Müəllifin "Bülbül", "Bu torpağı qoyub hara gedirsən?", "Salamat qal, gözəl Təbriz", "Elegiya", "Bir qış gecəsində", "Bu payız", "Kəsmə budağı", "Gülüm", "Payız yağışı", "Qılıncını qoyma qına" və s. şeirlərində nəzmin ahəng, ölçü, qafiyə, rədif, bölgü və s. kimi əlamətlərinə riayət etməsinin şahidi oluruq. Şairin mənsur şeirləri də bədii yaradıcılığında yer alması maraq kəsb edir.

Bayram İsgəndərlinin şeirlərinin misradaxili bölgülərinin standart olmadığı, müxtəlif misradaxili bölgülərə malik olmasını müşahidə edirik. Məsələn, şeirdə ahəng yaradan əsas şərtlərdən biri olan ölçü Bayram İsgəndərlinin yaradıcılığında özünü əsasən, 7 heca, 8 heca, 11 heca şəklində büruzə verir.

Bayram İsgəndərlinin nəzm nümunələrinin problematikasının müxtəlifliyi də diqqətdən yayınmır. Şairin "Bülbül" adlı şeirində təbiətin vəsf edilməsinin şahidi oluruq:

Buludlar topa-topa,
Kəhər tək çapa-çapa,
Yatmayır ipə-sapa,
Bu, payızdır, yaz deyil. [30]

Bayram İsgəndərli "Bu torpağı qoyub hara gedirsən?" adlı şeirində doğma yurd yerlərinin tərk edilməsinin acı və ağrısını poetik dillə təqdim edir:

Bu torpaqda Dədə Qorqud izi var,
Füzulinin, Nəsiminin sözü var.
Yurd yeridir, demək, onun közü var,
Bu torpağı qoyub hara gedirsən? [31]

Şair "Salamat qal, gözəl Təbriz" adlı şeirində oxucusuna Təbriz ayrılığının acısını çatdırır:

Təbriz eli oymaq-oymaq,
Olarmı hüsnündən doymaq?
Ollam yenə sənə qonaq,

---

[30] Bayram İsgəndərli. Bülbül. "Şərq qapısı" qəzeti, yanvar, 2000-ci il.
[31] Bayram İsgəndərli. Bu torpağı qoyub hara gedirsən? "Körpü" jurnalı, mart, 2005-ci il.

Salamat qal, gözəl Təbriz. [32]

"Qılıncını qoyma qına" adlı şeirində isə şairin doğma torpaqların azadlığı uğrunda mübarizəyə səsləyiş və s. özünü əks etdirir:

Qarı düşmən hələ sağdır,
Nifrət yağdır, qəzəb yağdır,
Bir rəng vardır, o da ağdır,
Qılıncını qoyma qına. [33]

Bayram İsgəndərlinin qələmə almış olduğu şeirlərində sözlərin tələffüz baxımından bir-birinə yaxın, oxşar səslənmə xüsusiyyətlərinin əks etdirilməsi məqamına diqqət yetirək. Şairin şeirlərində istifadə etdiyi qafiyə zəngin, yəni tam qafiyə, həm də yoxsul, yəni natamam qafiyə olmaları ilə diqqətdən yayınmır. Bayram İsgəndərlinin "Bülbül" şeirində zəngin qafiyə ilə üzləşirik:

Bir bax, yarpaq tökülür,
Gülün qəddi bükülür.
Çöllərə dağ çəkilir,
Bu, payızdır, yaz deyil. [34]

---

[32] Bayram İsgəndərli. Salamat qal, gözəl Təbriz. "Körpü" jurnalı, mart, 2005-ci il.
[33] Bayram İsgəndərli. Qılıncını qoyma qına. "Şərq qapısı" qəzeti, 21 noyabr, 1998-ci il.

Poetik nümunədəki tökülür, bükülür, çəkilir sözlərində bütün hecalar bir-biri ilə səsləşir ki, belə qafiyələr də zəngin qafiyə adlanır. Bayram İsgəndərlinin nəzm nümunələrində zəngin qafiyə ilə yanaşı yoxsul qafiyə ilə də üzləşmək mümkündür.

Bayram İsgəndərli yaradıcılığı ilə mənsur şeir ənənəsini davam etdirir. Yeni bədii formalardan biri olan, dünya ədəbiyyatında ilk dəfə fransız yazıçısı Aloiziyus Bertran (1807-1841) tərəfindən istifadə edilmiş mənsur şeirdə (fransısca Poème en prose, petit poème en prose) prozaik (şeirdəki kimi əlavə ritmik təşkili kimi mürəkkəbləşdirilməmiş) prinsiplər poeziyaya xas nisbi müxtəsərlik və lirik pafosla birləşir. Mənsur şeir fransız ədəbiyyatında Aloiziyus Bertran, Evarist Parni, Şarl Bodler, Artür Rembo, Teodor de Banvil, Lotreamon, Kro Şarl, rus ədəbiyyatında İ.S.Turgenev, hind ədəbiyyatında Robindranat Taqor, türk ədəbiyyatında Xalid Ziya, Azərbaycan ədəbiyyatında Gülhüseyn Hüseynoğlu kimi ədiblərin yaradıcılıqlarında özünün ən pik mərtəbəsinə yüksəlməyə nail olmuşdur. Bayram İsgəndərli "Bir payız günü" (1981), "Vaxtla üz-üzə"

[34] Bayram İsgəndərli. Bülbül. Məni ürəyinizdə axtarın. Bakı, "Elm və təhsil", 2023. səh.172.

(1999), “Bu qatar hara gedir” (2018) kimi mənsur şeirləri toplanılmış kitablarında mənsur şeir janr formasına geniş müraciət edir. Bayram İsgəndərlinin mənsur şeirləri məzmununa görə ictimai-siyasi, məhəbbət və təbiət problematikasına həsr edilmişdir. AMEA-nın müxbir üzvü, professor Tehran Əlişanoğlu Bayram İsgəndərlinin mənsur şeirlərini peşəkar ədəbiyyatşünas kimi dəyərləndirərək qeyd edir ki, “Bayram İsgəndərli sanki mənsur şeirə çəkən, bir qayda olaraq qəhrəmanın daxili hissləri, emosional dünyası, nisgil və ömür xatirələri üzərində qurulmuş yığcam hekayələr yazır; o sıradan “Bu qatar hara gedir” kitabında belə duyğusal insan-əhvalatla bizi tanış edir. Oxşar situasiya-qəhrəmanlar, yekrəng poetika eyniyyət cızır: əksərən insan-təbiət doğmalığının ahəngini çizgiləyən təsirli peyzajdan birbaşa qəhrəmanın iç dünyasına açılan düşüncələr ötən illər-xatirələr-əhvalatlar işığında İnsan həyatını (qəhrəmanın özünü) yaşanmış və yaşanmamış sevinc-nisgil, xoşbəxtlik, ya pərişanlıq, mənəvi duyğular sırası-aurasından təqdim edir və sanki hər dəfə başqa, alternativ ömür sorağı-arayışını aktualizə edir”. [35]

[35] Tehran Əlişanoğlu. Kitablar aləmində nələr baş verir // https://literature.az/?page=339&newsId=115679&lang=aze

Bayram İsgəndərli ictimai-siyasi mövzuda qələmə aldığı mənsur şeirlərində həqiqət, ictimai quruluş, dövlət idarə üsulları barədə fikirlərini oxucuya çatdırır. Yazıçının "Ürəyim, ay ürəyim" adlı mənsur şeirində bütün dünyaya sevgi çağırışını səsləndirməklə yanaşı, torpağını satmış insanlara nifrət etməyə çağırışı oxucunu düşündürür: "Nifrət etməyi də bacar, ürəyim. Sevgi qədər nifrətin də güclü olsun. Ağa qara deyənlərə, haqqını yeyənlərə, azadlığını buxovlayanlara, torpağını paylayanlara yönəlsin bu nifrətin". B.İsgəndərlinin "Mən insanam" adlı mənsur şeirində isə haqq tərəfdarı olmağa səsləyiş özünü büruzə verir: "Mən görə-görə kor olmaq istəmirəm. Mən eşidə-eşidə kar olmaq istəmirəm. Mən danışa-danışa lal olmaq istəmirəm. Mən anlaya-anlaya anlamaz olmaq istəmirəm". Müəllif "Vətən dərdidir, dərdlərin ən böyüyü" adlı mənsur şeirində ictimai-sosial problemlərə toxunsa da, bu problemlərin, ev dərdinin, uşaq dərdinin, ailə dərdinin Vətən, azadlıq kimi dərdlərin yanında kiçik olması amilini qabartmağa cəhd edir. Müəllif əyni nazik uşaqların titrəyə-titrəyə məktəbə getmələrini, qız-gəlinləri marıtlayan "kişi"lərin "qeyrətini", Vətənin, azadlığın hərraca qoyulmasını oxucusuna çatdırır.

Bayram İsgəndərli cəmiyyətdə olan sosial bərabərsizliyi qələmə aldığı “Duman gəl get bu üzlərdən, bu gözlərdən” adlı mənsur şeirində açıqlayır. Cəmiyyətdə kasıb və varlı təbəqələr arasındakı ziddiyyətləri açıqlayan müəllif yazır: “Qəssab, baltanı yavaş vur, ət satdığını kasıb görər, ala bilməyib kədərlənər.

Yağsatan tərəzinin gözlərini astaca tərpət. Kasıbın könlündən yağ yemək keçər, nə ilə alacaq?

Dövlətli, pullarını gizlində say. Kasıbın könlündən “mənim də pulum olsun” fikri keçər. Birdən əlini pula uzadar, sənsə əllərindən vurarsan...”

Müəllif dünyanın əzab-əziyyətli olması amilinə isə “Yuxulara dolmaq istəyirəm” adlı əsərində toxunur: “Şirincə-şirincə yatam. Dünyanın əzab-əziyyətindən xəbərim olmaya. Siyasi oyunlar burulğanında bir çöp kimi atılıb düşməyəm”.

Yazıçının mənsur şeirlərində yalnız insanın hisslərini, keçirdiyi iztirabları deyil, həmçinin həyatda olan nöqsanları, əyər-əksikləri də əksini tapır. Müəllif “Sormayın...” adlı mənsur şeirində məhz evsiz-eşiksiz olan insanların acı talelərini canlandırır: “Dünyanın məşhur bir şəhərinin parkında, sazaqlı bir havada bir insan yamyaşıl otların üzərində

polietilen - sellifon torbaya bürünərək yatıb. Avara itlər də onun yan-yörəsinə sığınaraq yatıblar”.

Bayram İsgəndərlinin məhəbbət mövzusunda qələmə alınmış mənsur şeirlərində əsasən, insanın mənsub olduğu böyük coğrafi ərazi olan Vətənə, kişinin qadına və ya əksinə qadının kişiyə, ataya, anaya, övlada, insana, əməyə olan məhəbbət tərənnüm edilir. B.İsgəndərlinin lirik xarakterli, çox da böyük olmayan “Qərar tutub ürəyimdə...” adlı mənsur şeirində insan qəlbinə hakim olmuş məhəbbətin bölünə bilməyəcəyinə baxmayaraq, onların müxtəlif olması amili qabardılır. Ürəyində “günəş kimi odlu məhəbbət” gəzdirən qəhrəmanın bu istəyi onun ikinci yarısına, yəni sevgilisinə aiddir: “O, sənin istəyin, sənin sevgindir, əzizim. Sənin. Ürək boyda dünyamda qərar tutub, məskən salıb bu sevgi”. Daha sonra yazıçı bu sevgi dünyasında başqa bir sevgi olduğu amilini vurğulayır: “Bu dünyada bir məhəbbət də özünə sığınacaq tapıb. Ürkək-ürkək. Bənövşə tək zərif, titrəkdir bu məhəbbət. Dünyaya gələn əziz oğlumuzun məhəbbətidir bu. Ürəyindən qopub, ürəyimə dolub”. Qələmə alınmış mənsur şeirdə maraqlı məqamlardan biri də lakonik şəkildə məhəbbətin sayının çoxalacağı amilinə nəzər salınmasıdır: “Haçansa qəlbimdə üçüncü bir məhəbbəti yaşada-

cam. Sonra...” Bu mənsur şeirdə lirik subyektiv qiymətləndirmə və ritmik intonasiyalı struktur özünü göstərir. Bayram İsgəndərlinin “Mən insanları sevirəm” mənsur şeirində isə insanlar iki kateqoriyaya ayrılır: yaxşı və pis. Müəllif bu bölgüyə daxil olan insanlar arasında fərq qoymadan onları eyni məhəbbətlə sevməsinin səbəblərini açıqlamağı da unutmur. “Qəlblərində, damarlarında nur gəzən” yaxşı insanları niyə sevməsini aydınlaşdıran müəllif yazır: “Mən insanları sevirəm. Yaxşısını da, pisini də. Yaxşısını sevirəm ki, sevilməyə dəyər”. Pis insanları isə “pisləri də sevirəm. Bütün rəzilliklərə səbəb olan iblis xislətli pisləri. Onları sevgimlə, məhəbbətimlə utandırmaq istəyirəm” deyərək, sevgi ilə cəzalandırmaq üçün sevməsinə toxunur.

Yazıçının yaradıcılığında Tanrıya olan sevgi poeziyaya xas məcaz və üslubi fiqurlarla zəngin olan “Bir sevgi yaşayır ürəyimdə” adlı mənsur şeirində əksini tapır. Bayram İsgəndərli sevgilərin ən ulusu və alisi olan Tanrıya olan sevgini əhvalatçılığa yol vermədən təhkiyə genişliyi ilə belə tərənnüm edir: “Bir sevgi alovlanır ürəyimdə. O bir yaradana – haqqın, ədalətin keşiyində duran ulu Tanrıya olan sevgi”.

Müəllif “Ürəyim, ay ürəyim” mənsur şeirində “... sev, doğulduğun yurdu, obanı. Sev bu dünyanı. Sev öz soyunu,

kökünü. Sev millətini, sev bütün millətləri" deyə insanları bir-birilərinə, doğma torpaqlarına dəyər verməklə yanaşı, vahid Azərbaycan anlayışını lirik tərənnümlə dərk etdirməyə cəhd edir. "Salam, ata yurdum" adlı lirik səciyyəli kiçik nəsr əsərində (mənsur şeirində) bədii obyektin mediativ təsvir və tərənnümü doğma el-obası üçün darıxan insanın daxili sarsıntılarını əks etdirməklə bərabər, Vətənin, yəni doğma Azərbaycanın ümumi obrazını yaradır: "Salam, yurdum-yuvam, elim - obam. Sizsiz yaman darıxmışam, darıxmışam". Bayram İsgəndərlinin tarixi inkişaf yolu keçmiş doğma torpaqlarının alın təri ilə suvarılmasını qələmə almış olduğu mənsur şeirində gerçəkliyə sözlə ekspressiv münasibəti özünü göstərir: "Salam, bərəkətli torpağım. Gəlmişəm öz alın tərimi sinəmə axıdam". Müəllifin Vətənə olan sevgisi əməyə, xalqın yaratdığı ənənələrə, doğma torpağa məhəbbət şəklində təzahür edir.

Yazıçının "Mən uşaq olmuşammı?" adlı mənsur şeirində isə lirik qəhrəmanın romantik hisslərinin tərənnümü üstünlük təşkil edir. Obyektiv gerçəkliyin həqiqətlərini yığcam şəkildə bədii həqiqət modelində təsvir etməyə nail ola bilən yazıçı verdiyi "mən uşaq olmuşammı, ata olmuşammı? Və ümumiyyətlə, mən kiməm?" kimi suallara özü ca-

vab verməyə cəhd göstərir: “Soy kökünün itmədiyini, yenidən yaşadığını görmək istəyən bir insan!” Lakonik şəkildə verilmiş bu cavabda isə insan həyatının mənasız keçməməsinə bir işarədir. Yazıçının “İstəyirəm” mənsur şeirində isə mənliyini, sevgisini, Vətənini qorumaq istəyən şəxsin istəkləri ilə yanaşı əgər onları qoruya bilmirsə “onda mən kiməm?” sualına da lakonik cavab diqqəti cəlb edir: “adicə bir sərsəri”. Yazıçının cavabı obyektiv gerçəkliyi bədii dil ekvivalentinə çevirərək konkret ünvanına yönəldir. Yazıçının “Vətən bülbülü” adlı mənsur şeirində də vətən həsrəti, vətənə bağlılıq özünü göstərməklə yanaşı, “mən kiməm?” sualına cavab axtarılır. “Vətənsiz mən kiməm?” sualını verən müəllif özü sualına konkret cavab verir: “Vətənsiz mən köləyəm. Vətənsiz mən bədənsiz bir ürəyəm”. Yazıçı “Mən kiməm” adlı mənsur şeirində isə bütün insanların arzu etdiyi cavabı səsləndirməyə nail olur: “Mən kiməm, mən kiməm? Köləlik buxovunu qıran bir insan. Millətlər içində imzasını görən bir vətəndaş, yurddaş”.

Anaya sevgi mövzusu ədəbiyyatda xüsusi yer tutmaqdadır. Bayram İsgəndərlinin sənətkarlıq nöqteyi-nəzərindən diqqəti cəlb edən “Mənim anam” adlı mənsur şeirində təhsil almaq üçün doğma obasından ayrılan gəncin keçirdiyi

iztirablarla yanaşı doğma anasını Kəpəzə, Savalana bənzətməsi, anaya yüksək münasibət və dərin hörmətini əks etdirməsi ilə diqqəti cəlb edir. Müəllif “Mənim anam” adlı mənsur şeirində iki surət yaratmağa nail olur. Biri şairin daxili duyğu və hisslərini əks etdirməyə qadir olan lirik qəhrəman və övladını sonsuz məhəbbətlə sevən ana obrazıdır. Anasından xoş sözlər eşitmək arzusunda olan lirik qəhrəmanın istəyi insanı düşündürməyə vadar edir: “İstəyirdim nəfəsini-süd ətirli nəfəsini udam, udam. İstəyirdim hamı susa. Təkcə sən danışasan. Sən. Amma danışmırdın, vüqarla dayanmışdın. Kəpəzim kimi, Savalanım kimi”. Lirik qəhrəmanın bu dedikləri hər bir kəsin öz anasına ünvanladığı ürək sözlərinin ümumiləşdirilmiş forması kimi müəllif tərəfindən təqdim edilir. Həcmcə qısa olan bu mənsur şeirdə Ana obrazı tam şəkildə canlandırılmış, anaya olan sonsuz ehtiram və məhəbbət əksini tapmışdır. Ayrılıq məqamı gələndə ananın “Möhkəm ol, mənim balam. Möhkəm ol!” fikirlərində oğlunu həyatın bütün sınaqlarına sinə gərməsini arzu edən ananın istəyi əksini tapmaqla yanaşı, Bayram İsgəndərli tərəfindən təqdim edilən ananın obrazı bütün anaların prototipi kimi çıxış edir.

Yazıçının “Səadət notları” adlı mənsur şeirində təhkiyə genişliyi ilə deyil, insan qəlbinin lirik-romantik tərənnüm hissi ilə övlada olan məhəbbət və onun dünyaya gəlişinin sevincinin əksi, gerçəkliyin düşündürücü mətləbləri ilə əksini tapır: “Həyata gəlişinlə dünya başqalaşıb gözlərimdə. Günəş daha nurlu olub. Çiçəklər ətirli, quşlar nəğməli, bulaqlar zümzüməli!”

Məhəbbətimin üstünə bir məhəbbət də canlanıb. Sənin məhəbbətin”.

Həcm etibarı ilə də çox yığcam və lakonik olan “Səadət notları” adlı mənsur şeirdə bir cümlə ilə atasız qalmış uşaqların keçirdiyi iztirab və duyğuları canlandırılır: “...Atana ana deyəndə kövrəlirəm, quzum. Kövrəlirəm. İstəmirəm onu “ana” deyib çağırasan. İstəmirəm. Yox, yox, ona ata de, ata. Sən ki, atalısan. Sən ki, yollara baxıb ata intizarı çəkməmisən.” Qələmə alınmış bu mənsur şeirdə ilk növbədə, nitqin emosionallığı oxucunu özünə cəlb edir.

Bayram İsgəndərlinin “Səadət notları” adlı mənsur şeirinin problematikasında bir atanın övlad sevgisi ilə yanaşı, atanın qürur duyması təbliğ edilir: “Sən ki, atalısan. Sən ki, yollara baxıb ata intizarı çəkməmisən.

Atana ata de, qızım. Ata. Dilinə qurban. Səsini nəğmətək ürəyimə çiləyim, ürəyimə. Təskinlik tapım, rahatlıq tapım, sənin sözlərindən:

– A-t-a!

...Ömrümün ikinci xoşbəxt çağını yaşayıram, qızım".

Təbiət hadisələrini təsvir edən Bayram İsgəndərlinin mənsur şeirlərində təbiət hadisələri ilə həyat hadisələri üzvü şəkildə təzahür edir. Müəllifin "Sən dözümlüsən, ana təbiət!" adlı mənsur şeirində təbiət peyzajı göz önündə canlandırılır: "Çöllər bəmbəyaz. Təpələr, dağlar bəmbəyaz. Bu bəmbəyaz çöllərdə, təpələrdə, dağlarda qış at səyirdir, şaxta qılıncı ilə təbiəti hədələyir".

"Xəzərin ittihamı" adlı mənsur şeirində Bayram İsgəndərli "Sən Xəzərdən də gözəlsən" deyə sevgilisini Xəzərlə müqayisə edən gəncə etiraz edən Xəzərin təlatümlü təsviri bizə onu canlı obraz kimi gözümüzdə canlandırır. Yazıçının bu mənsur şeirində hisslərin ekspressiv-emosional tərənnümü özünü göstərir: "Xəzər sanki onu təhqir edəni silləələmək istəyirdi. Qüvvətli qolları çatmadı. Ləngərlədi. Yeni zərbə yığmaq üçün ətəklərini yığaraq getdi. Bir-birinin boynuna sarılaraq gələn dalğalar sahilə çırpılanda qızla oğlan oradan getmişdilər".

Xəzərin möhtəşəmliyi yazıçının digər mənsur şeirində də əksini tapır. Müəllifin "Dilsiz məhəbbət" adlı mənsur şeirində də "Xəzərin ittihamı" adlı mənsur şeirində olduğu kimi iki gəncin məhəbbətinə Xəzər şahidlik edir. Sevinclərini bölməyə tələsən iki sevgilinin sahilə gəlmələri və birbirilərinə deyə bilmədiklərini Xəzərin təlatümlü halı ilə müəllif tərəfindən təsviri oxucu yaddaşına hopur: "...tüğyana gəlmiş dəniz onların demədiklərini deyirdi. Özünə məxsus rənglə, pafosla. Nəğməyə çevrilmiş şirin pıçıltılarla..."

Yazıçı insan həyatı üçün bir an – bir saniyə, hətta bir dəqiqə kimi qısa zaman ərəfəsində baş verən hadisələrin insan taleyində oynadığı rolu, hətta insan həyatını dəyişməyə qadir olmasını vurğulayır. Bayram İsgəndərlinin "Bir an" adlı mənsur şeirində müəllif zaman anlayışına aydınlıq gətirir. Özünəməxsus şəkildə "bir an" anlayışının insan taleyində oynadığı rol, insan taleyini dəyişə biləcəyi və s. məqam incəliklə təqdim edilir: "Bir an az vaxt deyil. Bir an. Bir anda gör nələr olar, nələr?"

Ən cüzi bir zaman, bir göz qırpımlıq müddət olan anın Bayram İsgəndərli tərəfindən dəyərləndirilməsi məqamı fəlsəfi məzmun daşıyır: "Bir anda insan sevə bilər. Bir anda ürək qapılarını taybatay açıb məhəbbətə deyər: "Gəl sakin

ol”.” Və yaxud “Bu “bir an”da parçalanar zümrüd göylər” və s. Göründüyü kimi, bu mənsur şeirdə poetik kombinasiyalar lirik şeirə xas ardıcıllıq və sistemli səciyyəyə malik deyil. Bayram İsgəndərlinin yaradıcılığında oxucusuna çatdırmaq istədiyi ayrılıq sözün bədii plastikasında özünəməxsus üslubi çalarlarla çatdırılır. Müəllifin yaradıcılığında payız ayrılıq funksiyasını daşıyır. Sevən iki gəncin əhdlərinə sadiq qala bilməmələri əksini tapır. Məhz bu ayrılığı “payız yeli”nə bənzədən yazıçı qələmə alır: “Haradasa payız yeli əsdi bu an. Haradasa bir kaman inildədi. Haradasa ürəyimin xatirəli kövrək bir telinin qırıldığını duydum. Haradasa bir budaq öz gövdəsindən qopdu”.

Yazıçı ayrılıq məqamlarını lirik dillə təqdim etməyə digər mənsur şeirlərində də nail olur. Qeyd etmək lazımdır ki, məhəbbət mövzusunda yazılan əsərlərdə ayrılıqdan bəhs etmişlər. Bu məhəbbət mövzusunda qələmə alınmış əsərlərin açar sözlərindən birinə çevrilmişdir. Bayram İsgəndərli ayrılıq mövzusunu “...Xatirəmdə iki bahar yaşayır. Biri topa-topa qara buludlu, ildırım qoxulu. Biri həyat nəfəsli, həzin kədərli” deyərək ata itkisi fonunda valideynə (ata) məhəbbətini izhar etməklə, ayrılığın insana verdiyi acını göstərə bilir. “Bahar o bahar deyildi...” adlı mənsur şeirində ayrılıq

məqamının təsviri oxucunu düşüncələrə dalmağa vadar edir. Ayrılıq səhnəsini təsvir edə bilən yazıçı buna nail olur: “Topa-topa qara buludlar atamın gedişinə bənd imiş kimi çaxnaşdı, ildırımlar göyləri zolaq-zolaq doğradı. Qəzəbli bir uğultu eşidildi. Sandım ki, bu göylərin gurultusu deyil. Bu, mənim, nənəmin, anamın, Nərgizin, Bənövşənin, Yasəmənin, Vaqifin düşməni qarğıyan, atama ürək-dirək verən səsidir ki, göylərin sinəsindən qopur...” Müəllif hər ayrılıq sonrası ağrının obrazını yaratmağa nail olur. Hər ayrılıq sonrası ayrıldığı şəxslə bağlı xəyalların boşluğa düşməsinə rəğmən, həyatda dəyərli varlığın itkisi, heç vaxt görə bilməyəcəyin ağrı yazıçı Bayram İsgəndərli tərəfindən oxucu gözündə canlandırılır.

Müəllifin “Bahar o bahar deyildi...” adlı mənzum hekayəsində isə müharibələrin insan talelərinə vurduğu zərbə, gətirdiyi fəlakət açıqlanır. Bayram İsgəndərli qısa bir cümlə ilə bunu açıqlayır: “...Xatirəmdə iki bahar yaşayır. Biri topa-topa qara buludlu, ildırım qoxulu. Biri həyat nəfəsli, həzin kədərli”. [36]

[36] Bayram İskəndərov. Bir payız günü (Hekayə və mənsur şeirlər). Bakı, Yazıçı, 1981. 78 səh. səh.76.

Bayram İsgəndərli bədii həyəcanı daha güclü təsvir etmək, janr sahəsində yenilik yaratmaq üçün lirik nəsrə müraciət edir. Bir sıra tədqiqatçılar qeyd edir ki, “mənsur şeir hiss və həyəcanın yüksək ifadəsini vermək üçün nəsrə lirik xüsusiyyət gətirir”. [37] Digər tədqiqatçıların qeyd etdikləri kimi “lirik və epik xüsusiyyətlərin müştərək birgə halında iştirak etdiyi, həm də insanın daxili, hissi aləmini qələmə alan, vəzn, qafiyə, bölgü kimi nəzm şərtlərindən uzaq, təbii ritmik nəsr dili ilə yığcam yazılan əsərlərə mənsur şeir adı verirlər”. [38] Bayram İsgəndərlinin yaradıcılığında bu iki amil özünü büruzə verir. Bayram İsgəndərlinin mənsur şeirlərində təhkiyə başlanğıcı qismən zəifləmiş şəkildə olsa, dilə, mətnin ifadəli tərəfinə, həmçinin obrazlılığa xüsusi diqqət yetirilir. Özünəməxsus yaradıcılığı ilə Bayram İsgəndərli ədəbiyyatımızda düşündürücü, maraqlı mənsur şeir nümunələri yaratmağa nail olur.

[37] Cəfər Xəndan. Ədəbiyyat nəzəriyyəsi. Bakı, Azərnəşr, 1958. səh.251.
[38] Mir Cəlal. Pənah Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı, “Maarif”, 1988, səh.101.

## BAYRAM İSGƏNDƏRLİNİN MƏNSUR ŞEİRLƏRİNDƏ XALQ YARADICILIĞINA MÜRACİƏT

Bayram İsgəndərli mənsur şeirlərində xalq yaradıcılığına tez-tez müraciət edir. Onun "Anam mahnı oxuyurdu", "Ömür", ""Vətən", "Bayatı" kimi mənsur şeir nümunələrində bayatılardan istifadə edilir. Müəllif "Vətən" adlı mənsur şeirində

Əzizim vətən yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı [39]

– bayatısını təqdim edir.

Bayram İsgəndərli istifadə etdiyi bayatı nümunəsi ilə Vətənə olan bağlılığını, sevgisini izhar etməyə cəhd edir.

Müəllif "Anam mahnı oxuyurdu" adlı mənsur şeirində də bayatıya müraciət edərək, anasına olan sevgisini izhar etməklə yanaşı, onun daxili aləmini açıqlamağa çalışır:

Bağımda üzüm gilə,
Sarmanıb üzüm gilə.

[39] Bayram İsgəndərli. Vətən. Vaxtla üz-üzə. Bakı, "Yurd", 1999. səh.42.

Düşmən qəlbim taladı,
Qoymadı üzüm gülə. [40]

Bayram İsgəndərli “Bayatı” adlı mənsur şeirində isə məişət nəğməsi olan laylaya müraciət edir:

Laylay beşiyim, lay-lay
Evim-eşiyim, lay-lay.
Sən get şirin yuxuya,
Çəkim keşiyin, lay-lay. [41]

Bayram İsgəndərlinin mənsur şeirlərində xalq yaradıcılığına müraciət etməsi və ondan lazımi səviyyədə yararlana bilməsi, yazıçının xalq yaradıcılığına dərindən bələd olmasını və ona olan sevgisini əks etdirir.

Bayram İsgəndərlinin “Qürbət bayatıları” başlığı altında təqdim etdiyi və türk folklor etnoqrafiyasında geniş yayılmış bayatılar da problematika baxımından zəngindir. Şairin qələmə aldığı bayatılar fəlsəfi məzmun əxz etməsi ilə maraq kəsb edir. Məsələn,

Köynəyim kətan olsun,
Dadıma yetən olsun.

[40] Bayram İsgəndərli. Anam mahnı oxuyurdu. Vaxtla üz-üzə. Bakı, “Yurd”, 1999. 68 səh. səh.51.
[41] Bayram İsgəndərli. Bayatı. Vaxtla üz-üzə. Bakı, “Yurd”, 1999. səh.43.

İncitmə mən qəribi,
Qəbrim qoy vətən olsun.[42]

Şair insanın son mənzilinin onun vətəni olmasını səsləndirməsi insanının bu haqda fikirləşməyə vadar edir. Bayram İsgəndərlinin bayatılarında sevgiyə sadiq qalmağa səsləyiş də yer almaqdadır:

Ay haray, sar əlindən,
Qoy öpüm yar, əlindən.
Sənə xəyanət etsəm,
Qəlbimi yar əlinlə.[43]

Bayram İsgəndərlinin Azərbaycan lirik xalq şeiri janrı olan bayatılara müraciət etməsi folklora olan sevgisinin təzahürü kimi özünü göstərir.

---

[42] Bayram İsgəndərli. Məni ürəyinizdə axtarın. Bakı, "Elm və təhsil", 2023. 186 səh. səh.177.
[43] Bayram İsgəndərli. Qürbət bayatıları. Məni ürəyinizdə axtarın. Bakı, "Elm və təhsil", 2023. 186 səh. səh.176.

# BAYRAM İSGƏNDƏRLİNİN YARADICILIĞINDA PYESLƏR

Bayram İsgəndərlinin dram əsərləri haqqında bəhs edərkən, diqqəti cəlb edən onun həm böyüklər üçün, həm də uşaqlar üçün pyeslər qələmə almasıdır.

Bayram İsgəndərlinin “Qarabağdan gələn duman” (2018) kitabında “Gəlmələr” pyesi, “Uşaqlar üçün pyeslər” (2023) kitablarında uşaqlar üçün qələmə aldığı “Boz tülkü haqqında nağıl”, “Siçanların hiyləsi”, “Yalanlara inanmayın”, “Özgəyə quyu qazan”, “Cırtdanın yeni sərgüzəşti”, “Xeyirxah kirpi”, “Meşədə əhvalat”, “İki təlxək, bir keçəl”, “Ayı mərz çəkməkdən qaçdı” kimi doqquz pyesi yer almaqdadır.

Bayram İsgəndərlinin “Gəlmələr” (2018) pyesi 10 şəkildən ibarətdir. Pyes Birinci Qarabağ müharibəsi zamanı qələmə alınmışdır. Pyesdə xalqımızı düşündürən aktual problemlərdən olmuş Qarabağ mövzusu ətrafındakı məsələlərə aydınlıq gətirilir. Qarabağa gəlmə olan ermənilərin məskunlaşmaları, azərbaycanlıların rəğbətini qazanaraq azərbaycanlılara aid olan torpaqları erməniləşdirməyə çalışan Lalayan, Balayan və Köçəryanın bəd əməlləri pyesin

problematikasında qabarıq şəkildə əksini tapır. Buna baxmayaraq, müəllif pyesdə Qarabağın azad edilməsinə olan inamını da əks etdirir. Bu da Birinci Qarabağ müharibəsi dövründə qələmə alınmış əsərlərə xas xüsusiyyət idi.

Müəllifin qələmə aldığı dram əsərlərində müsbət qüvvələrin, mütərəqqi ideyaların üstünlük qazanması özünü göstərir ki, bu da drama aid xüsusiyyətlərdir. Personajların danışığı və hərəkəti ilə canlandırılan dramatik növün üç janrda, yəni komediya, faciə və dramda olması bəllidir. Bayram İsgəndərlinin qələmə aldığı dramatik növ isə dram olması ilə diqqəti cəlb edir.

Bayram İsgəndərlinin uşaqlar üçün qələmə aldığı pyeslərin problematikası artıq başqa səmtdə inkişaf edir. Belə ki, müəllif böyüklər üçün qələmə aldığı "Gəlmələr" və s. pyeslərin problematikasından fərqli olaraq, uşaqlar üçün qələmə aldığı "Boz tülkü haqqında nağıl", "Siçanların hiyləsi", "Yalanlara inanmayın", "Özgəyə quyu qazan", "Cırtdanın yeni sərgüzəşti", "Xeyirxah kirpi", "Meşədə əhvalat", "İki təlxək, bir keçəl", "Ayı mərz çəkməkdən qaçdı" kimi pyeslərində uşaqları maraqlandıran, onların təlim-tərbiyəsinə, şəxsiyyət kimi formalaşmasına təsir edə biləcək hadisələr yer alır. Məsələn, "Cırtdanın yeni sərgüzəşti" pye-

sinin hamımıza bəlli olan “Çırtdanın nağılı”ndan təsirlənərək qələmə alınması, orda əksini tapan hadisələrin təqdimi diqqətdən yayınmır. Müəllif məhz Cırtdanın simasında cəsarətli, ağıllı davranmağı, qorxmamağı təbliğ edir. Elə pyesin sonunda Cırtdanın dediyi nəzm nümunəsində pyesin əsas məğzinə aydınlıq gətirilir:

“Cırtdan: Dostlarımla sözümüz bir olsa, yenə məğlub olacaqsan. Arzun ürəyində qalacaq:

Olsa sözümüz bir, əməlimiz bir,
Sənin kimi divlər bizə neyləyər?
Çaya gedəcəksən əlində xəlbir,
Unutma, əyrilər düzə neyləyər?” [44]

Göründüyü kimi, müəllif dostluğu, birliyi, inamı, bir-birinə arxa durmağı pyesin problematikasında uşaqlar üçün təbliğ edir.

Bayram İsgəndərlinin qələmə aldığı pyeslərində surətlərin danışığı həm dialoq, həm də monoloq şəklində əksini tapır. Maraqlı məqam isə odur ki, pyeslərdə monoloqlar dialoqların təqdimi zamanı özünü büruzə verir. Dramaturqun “Gəlmələr” pyesində bunun şahidi oluruq. Dram əsə-

---

[44] Bayram İsgəndərli. Uşaqlar üçün pyeslər. Bakı, “Elm və təhsil”, 2023. 144 səh. səh.85.

rində Qriqorun, arvadı Arpenikin Qoşqar kişi ilə dialoqlarında bunu açıq-aydın şəkildə görmək mümkündür. Qoşqar kişi ilə Qriqor arasındakı dialoqun bir məqamına diqqət yetirək:

"Qoşqar kişi – Lənət şeytana. Görünür, aralığa şeytan girib. Olan olub, keçən keçib. İnşallah, bu iş aydınlaşar. Günahınızın olmadığı sübutla yetər, ev -eşiyinizə qayıdarsınız.

Qriqor – (Kənara) Deyəsən, inandıra bildim. Bax elə mənə də bu lazımdır. O ki, qaldı geri qayıtmağımıza.... Onu heç ağlına gətirmə. Qayıdacağıqsa, daha nəyə gəlirdik? Bir dayanın, başınıza elə bir oyun açacağıq ki, goru gözünüzlə görəcəksiniz. (Qoşqar kişiyə) Vallah, heç bilmirəm ki, sizə necə minnətdarlıq eləyim". [45]

Bayram İsgəndərlinin "Gəlmələr" pyesində remarka əvəzinə İxtiyar qoca çıxış edir. İxtiyar qoca pyesin birinci şəklinin əvvəlində və dördüncü, onuncu şəkillərin sonunda baş verən hadisələr, surətlər haqqında qısa məlumat verir. Məsələn, İxtiyar qocanın dediklərinə nəzər salaq: "Qarcovğunlu bir qış gecəsi idi. Soyuq qılınc kimi kəsirdi. Bir

---

[45] Bayram İsgəndərli. Qarabağdan gələn duman. Bakı, "Elm və təhsil", 2018. 88 səh. səh.74.

neçə erməni ailəsi bu kəndə və digər kəndlərə gəldi. Bir erməni ailəsi də Qoşqar kişigilin qapısını döydü”. [46] İxtiyar qocanın digər bir yerdə səsləndirdiyi “...ermənilər və erməniləşdirilmişlər bu torpaqlara sahib olmaq üçün planlar cızdılar, məxfi işlər görməyə başladılar”. [47] İxtiyar qocanın belə təqdimatından sonra müəllif pyesdə məhz “ermənilər və erməniləşdirilmişlər”in həyata keçirdikləri mənfur əməlləri işıqlandırır. İxtiyar qocanın sonuncu şəkildə artıq azərbaycanların doğma torpaqlarından zorla çıxarılması kimi tarixi reallıq əksini tapır.

Bayram İsgəndərli uşaqlar üçün qələmə aldığı pyeslərdə dialoqlara üstünlük verir. Lakin bu pyeslərdə atalar sözləri və məsəllərdən istifadə edilməsi diqqətdən yayınmır. Məsələn, beş şəkildən ibarət olan “Özgəyə quyu qazan...” adlı pyesdə pyesin atalar sözü ilə bitməsi maraq kəsb edir. Müəllif pyesin sonunda “Hə, əziz balalar, atalar yaxşı deyib, özgəyə quyu qazan, özü düşər. Necə ki, tülkü və çaqqal düşdülər” kimi təqdim etdiyi cümlələrdə atalar sözünə mü-

[46] Bayram İsgəndərli. Qarabağdan gələn duman. Bakı, “Elm və təhsil”, 2018. 88 səh. səh.68.
[47] Bayram İsgəndərli. Qarabağdan gələn duman. Bakı, “Elm və təhsil”, 2018. 88 səh. səh.76.

raciət edir. Bayram İsgəndərli pyesinin adını "özgəyə quyu qazan, özü düşər" atalar sözünə əsaslanaraq adlandırır.

Bayram İsgəndərlinin "Gəlmələr" pyesinin obrazları müxtəlif olması ilə diqqəti cəlb edir. Pyesdə azərbaycanlı və erməni obrazlarının müxtəlif rakursdan təqdimi diqqətdən yayınmır. Pyesdəki İxtiyar qoca bizlərə şifahi xalq ədəbiyyatından yaddaşlarımıza həkk olunan ozanları, dədələri, Dədə Qorqudu və başqalarını xatırladır. Pyesdəki hadisələr elə İxtiyar qocanın dili ilə nəql edilir:

"İxtiyar qoca – Sizə danışacağım nə əfsanədir, nə nağıldır, nə də hekayə. Bu, olmuş bir əhvalatdır". Bayram İsgəndərli Qoşqar kişinin Qriqorun evində gecəyarı qonaqlamasını təsvir etməklə azərbaycanlıların qonaqpərvər olmalarını açıqlayır.

Maraqlı məqam isə pyesdə, erməni obrazının mənəvi aləmlərinin onların dili ilə təqdim edilməsidir. Belə təqdimlərlə biz erməni obrazının daxili aləmi ilə üzləşirik. Məsələn, onu evində qonaqlayan Qoşqar kişinin xeyirxah əməllərinə münasibət bildirən Qriqorun düşüncələrində onun nəyə qadir olması açıqlanır: "Bir az oyan-bu yan eləsə, xən-

cəri soxaram qarnına” [48], “Çörəyini də yeyəcəm, canını alıb gözünü də çıxaracağam”. [49]

“Gəlmələr” pyesində müəllif həm azərbaycanlıların, həm də ermənilərin və ya erməniləşdirilmişlərin surətlərini yaradır. Obrazlar vasitəsilə tarixi reallıqlara qiymət verməyə nail olur. Maraqlı məqam isə ermənilər və erməniləşdirilmişlərin dili ilə onların daxili aləmi, mənəvi dünyaları əksini tapır:

“Köçəryan – Əhsən, Balayan. Əhsən. Baxmayaraq ki, o tərəfdən qarışığın var, amma əsl ermənisən. Hiyləgər, çoxbilmiş...”[50]

Bayram İsgəndərlinin uşaqlar üçün qələmə aldığı “Boz tülkü haqqında nağıl”, “Siçanların hiyləsi”, “Yalanlara inanmayın”, “Özgəyə quyu qazan”, “Cırtdanın yeni sərgüzəşti”, “Xeyirxah kirpi”, “Meşədə əhvalat”, “İki təlxək, bir keçəl”, “Ayı mərz çəkməkdən qaçdı” pyeslərindəki obrazlar insanlara xas əlamətlərin, hərəkətlərin, xüsusiyyətlərin heyvanlar, bitkilər üzərinə köçürülərək təqdim edilməsi ilə diq-

[48] Bayram İsgəndərli, Qarabağdan gələn duman. Bakı, “Elm və təhsil”, 2018. 88 səh. səh.69.
[49] Bayram İsgəndərli, Qarabağdan gələn duman. Bakı, “Elm və təhsil”, 2018. 88 səh. səh.71.
[50] Bayram İsgəndərli, Qarabağdan gələn duman. Bakı, “Elm və təhsil”, 2018. 88 səh. səh.77.

qəti cəlb edən obrazlardır. Bayram İsgəndərli həmin personajları hətta pyesin adına da çıxarır. Məsələn, "Boz tülkü haqqında nağıl" pyesində Boz tülkü, "Siçanların hiyləsi" pyesində siçanlar, "Xeyirxah kirpi" pyesində kirpi, "Ayı mərz çəkməkdən qaçdı" pyesində ayı...

Uşaqlar üçün qələmə almış olduğu pyeslərdə Bayram İsgəndərli dovşan (ağ dovşan, boz dovşan), ayı (ağ ayı, qonur ayı), it, pişik, at, eşşək, öküz, qoyun, canavar, tülkü, kirpi, çaqqal, cüyür, bizon, bala qurbağa, dələ və s. kimi ev və vəhşi, meşə heyvanlarını personaj kimi təqdim edir. Müəllif həmin personajları uşaqların sevimlisinə çevirməyə nail olur.

# BAYRAM İSGƏNDƏRLİNİN PUBLİSİSTİKASI

Bayram İsgəndərlinin publisistik yazıları mövzu baxımından rəngarəngdir. Müəllif publisist yazılarında cəmiyyəti düşündürən aktual məsələlərə nəzər salır. Bununla yanaşı həmkarları haqqında olan düşüncələrini də əks etdirməyə nail olur.

Bayram İsgəndərlinin “...Mən zəmanət verərəm” publisistik yazısının problematikasına diqqət yetirsək, publisistik nümunədə Azərbaycanın Xalq yazıçısı Sabir Əhmədli haqqında real faktlar əldə edirik. Belə ki, Azərbaycan ədəbiyyatının söz xiridarı Sabir Əhmədlinin xeyirxah əməlinin, öz həmkarlarına xeyir-dua verməsi, onların ədəbi yaradıcılığına işıq salması Bayram İsgəndərli tərəfindən təqdim edilir: “Sabir müəllim “Ədəbiyyat və incəsənət”də (”Ədəbiyyat qəzeti”...) şöbə müdiri işləyən vaxtlar idi. Haqqında çox eşitmişdim. Bəzi əsərlərini də oxumuşdum. Məsələ onda deyil. Məsələ ondadır ki, onun çox yaxşı adam olduğunu deyirdilər. Deyirdilər ki, nə qədər yaxşı yazıçıdırsa, bir o qədər də yaxşı insandır. Məni ona sarı çəkən, onunla görüş-

məyə vadar edən də məhz onun yaxşı adam olması idi”. [51] Müəllifin bu publisistik yazısında “Kütlə”, “Axirət sevdası”, “Kef”, “Ömür urası”, “Şəhid ruhu” və s. əsərlər müəllifi olan Sabir Əhmədlinin xeyirxah əməllər sahibi olması canlandırılır.

Bayram İsgəndərli həmçinin Sabir Əhmədlinin ona təqdim etdiyi hekayələrinə tənqidi yanaşması amilini də publisistik yazısında təqdim edir: “... qəzetin səhifələrində adım göründü. Amma necə?! Nə görsəm yaxşıdır? Mənim adım bir neçə yazıçı ilə birlikdə ədəbi xülasədə çəkilmişdi. Daha doğrusu, tənqid edilmişdi. Qeyd olunmuşdu ki, mən və o yazıçılar mövzu axtarışında çətinlik çəkirik, şablon yazılar yazırıq, tələm-tələsik çap olunmaq istəyirik... Biz çox az mütaliə etdiyimizə görə müasir oxucunun tələblərinə cavab verən əsərlər yaza bilmirik...” [52] Bayram İsgəndərli həmkarı Sabir Əhmədlinin onun hekayələrinə tənqidi yanaşmasına münasibətini bir yazar kimi qəbul etsə də, tənqidi qeydlərə biganə qalmayaraq qeyd edir ki, “O da (Sabir Əhmədli-S.Ş.) olanlara aydınlıq gətirdi. Dedi ki,

---

[51] Bayram İsgəndərli. Mən zəmanət verirəm… Ədəbiyyat qəzeti. 2013. 30 avqust. səh.4.

[52] Bayram İsgəndərli. Mən zəmanət verirəm… // http://www.anl.az/down/meqale/edebiyyat/2013/avqust/323635.htm

hamısını düz deyirsən, günah məndə olub. Sən mənə yazılarını verəndən sonra baş redaktor məni çağırıb tapşırdı ki, redaksiyaya daxil olan zəif əsərlər haqqında bir xülasə yazım. Nə yazacağım bəlli idi. Oturub yazdım. Yazan zaman birdən gözüm sənin də yazılarına sataşdı. Mənə elə gəldi ki, sən də onlar kimi bir yazıçısan. Və sənin də adını xülasəyə saldım. Düzü, bilmədim bu necə oldu”. [53] Kiçik publisistik yazının problematikasında ciddi bir problemi qabartmağa nail olmuş müəllif qələm sahiblərinin etinasız addımlarının düzgün olmadığını əks etdirə bilir. Redaksiyaya təqdim edilən yazıların oxunulmadan fikir bildirilməsi, xüsusilə də tənqidi münasibət sərgilənməsi bu gün də cəmiyyətimizdə özünü göstərməkdədir. Təəssüf hissi doğuran bu kimi faktları publisist yazılarının mövzusuna çevirməyi bacarmış Bayram İsgəndərli yalnız özünün deyil, bütün həmkarlarının problemlərinə işıq salır.

Bayram İsgəndərli “Gecikmiş məktub” adlı publisistik yazısında “Poetik qrammatik Azərbaycan dili” kitabının müəllifi Elbəyi Maqsudovun elmi fəaliyyətinin yüksək də-

---

[53] Bayram İsgəndərli. Mən zəmanət verirəm…. Ədəbiyyat qəzeti. 2013. 30 avqust. səh.4 // http://www.anl.az/down/meqale/edebiyyat/2013/avqust/323635.htm

yərləndirilməsini qeyd etməklə yanaşı, onun bir şair kimi tədqiq edilməməsinə olan təəssüf hisslərini də əks etdirir: "O ki qaldı şairliyinə... O haqda da deyilib. Amma tənqidçi baxışı ilə araşdırılmayıb şeirlərin. Amma araşdırılmalıdır..." [54]

Bayram İsgəndərlinin "Səmimiyyətin işığı" adlı essesində müəllifin insani dəyərlərə yüksək dəyər verməsi diqqətdən yayınmır. Yazıçı qeyd edir ki, "İnsanları həmişə səmimiyyətinə görə qiymətləndirmişəm; bacarığına, istedadına, vəzifəsinə və digər xüsusiyyətlərinə ondan sonra dəyər vermişəm; heç vaxt yanılmamışam: insan səmimidirsə, deməli, o, əxlaqlıdır, öz əməyi ilə yaşayandır, başqasının malına, mülkünə, torpağına… göz dikən deyil. O, əsl vətəndaşdır; ona həmişə bel bağlamaq olar". [55] Bayram İsgəndərli bu essesinin problematikasında qələm sahiblərinə də diqqət ayırmış, bir ziyalı kimi münasibətini bildirmişdir: "O ki, qaldı söz adamına…

Səmimiyyət onlar üçün hava və su qədər lazımdır… Səmimi olmayan söz adamının yazdığı da özü kimi saxta-

---

[54] Bayram İsgəndərli. Gecikmiş təbrik. "Palitra" qəzeti №225 (2561), 5 dekabr 2015-ci il. səh.15.
[55] Bayram İsgəndərli. Səmimiyyətin işiğı. "Palitra" qəzeti. 6 noyabr, 2018-ci il. səh.15.

dır; nə qədər sözün arxasında gizlənsə də, onun yalan danışdığı, məkrli içi görünəcəkdir…” [56]

Bayram İsgəndərli qələmə aldığı publisistik yazılarında dialoqlara üstünlük verməsi diqqətdən yayınmır. Məsələn, yazıçının “Mən zamanət verirəm...” publisistik yazısında yazıçı Sabir Əhmədli ilə dialoqu maraq doğurur: “Sabir müəllimlə görüşümdə minnətdarlığımı bildirdim. O birdən məndən soruşdu:

– Yazıçılar İttifaqının (o vaxt Birlik deyildi, İttifaq idi) üzvüsən?

– Yox, – dedim, bir neçə dəfə sənədlərimi Naxçıvandan təqdim ediblər, amma burada – yəni Yazıçılar İttifaqında itib-batıb. Uzaqdır da gəlib-gedə bilmirəm. Bir də ki, gəlsəm nə xeyri var? Orda mənim kimim var? Görürəm adamsız mümkün deyil. Mənimsə...

– Sənin adamın mən. Mən zəmanət verərəm. Yazıçı dostlarım da. Sənədlərini hazırla”. [57]

---

[56] Bayram İsgəndərli. Səmimiyyətin işiği. “Palitra” qəzeti. 6 noyabr, 2018-ci il. səh.15.
[57] Bayram İsgəndərli. Mən zəmanət verirəm…. Ədəbiyyat qəzeti. 2013. 30 avqust. səh.4.
// http://www.anl.az/down/meqale/edebiyyat/2013/avqust/323635.htm

Bayram İsgəndərli və bədii yaradıcılığı ilə ədəbiyyatımızda xüsusi yer tutan Sabir Əhmədli arasındakı dialoqda Sabir Əhmədlinin həm də xeyirxah əməllər sahibi olması vurğulanır.

Bayram İsgəndərlinin publisistik yazılarında təqdim etdiyi obrazlar özünün şəxsən tanıdığı, ünsiyyətdə olduğu, dəyərləndirdiyi şəxslərdir. Məsələn, Bayram İsgəndərlinin "Gecikmiş məktub" adlı publisistik yazısında alim, şair, Elbəyi Maqsudovun bir şair, bir alim kimi obrazı canlandırılır. Yazar Elbəyi Maqsudovun şair kimi obrazını belə təqdim edir: "Mənə gəlincə... Şeirlərindən sənin nəfəsinin, ruhunun qoxusu gəlir. Paklıq, nəciblik, insani sevgi qoxusu..." [58] Daha sonra müəllif Elbəyi Maqsudovu daha geniş ampulada təqdim edərək dolğun obrazını yaratmağa cəhd edir: "Əzizim, sənin damarlarında bir Azərbaycan türkünün, bir hürufinin, bir sufinin qanı axır. Sənin damarlarında axan qanda bu torpağa – Azərbaycana (bütöv, bölünmüş Azərbaycana, onun insanlarına) məhəbbət, sevgi var... Bu məhəbbətdir səni yaşadan, səni ilhamlandıran..." [59]

[58] Bayram İsgəndərli. Gecikmiş təbrik. "Palitra" qəzeti. №225 (2561), 5 dekabr 2015-ci il. səh.15.
[59] Bayram İsgəndərli. Gecikmiş təbrik. "Palitra" qəzeti. №225 (2561), 5 dekabr 2015-ci il. səh.15.

"60 illik yubileyə dost sözü" adlı publisistik yazısında Bayram İsgəndərli şəxsən tanıdığı, dostluq münasibətində olduğu şair Məmməd Tahirin dolğun obrazını yaratmağa nail olur: "Demişdim ki, ədəbiyyatımıza milli ruhlu, milli düşüncəli, öz səsi, nəfəsi, öz ifadə vasitəsi olan bir şair gəlir". [60] Daha sonra müəllif Məmməd Tahirin obrazını incə nüanslarla təqdim edir: "Şeirlərin özünə oxşayırdı. Onlarda bir çılğınlıq vardı, heç kimin işlətmədiyi deyimlər, fəlsəfi düşüncələr vardı. Axı sən tapdanmış yolla getmirdin, məddahlıqdan uzaq idin". [61] Bayram İsgəndərlinin qələm yoldaşı haqqında qələmə aldığı səmimi düşüncələrində Məmməd Tahirin şair kimi, yaradıcı insan olması kimi dolğun obrazı canlandırılır.

Bayram İsgəndərli "Qəlbinizin səsi həmişə təmiz qəlblərə çatsın" adlı publisistik yazısında isə qadın yazarların ədəbi yaradıcılığına dəyər verməsi yer alır. Məsələn, Bayram İsgəndərli "Azərbaycan" jurnalının baş redaktor müavini Südabə Ağabalayevanın fəaliyyətini dəyərləndirərək qeyd edir ki, "Südabə Ağabalayevanın sənət adamlarına,

[60] Bayram İsgəndərli. 60 illik yubileyə dost sözü. "Kaspi" qəzeti. 30 may-1 iyun, 2015-ci il. səh.18.
[61] Bayram İsgəndərli. 60 illik yubileyə dost sözü. "Kaspi" qəzeti. 30 may-1 iyun, 2015-ci il. səh.18.

ümumiyyətlə, insanlara olan bu münasibəti, qayğısı və tənqidçilik məharəti müasir Azərbaycan ədəbiyyatının aparıcı tənqidçilərinin diqqətindən yayınmayıb”. [62]

Bayram İsgəndərlinin publisist yazılarında mənsub olduğu xalqının dəyərli övladlarının təqdim edilməsi gələcək nəsillərə bir ərmağandır.

Bayram İsgəndərlinin yaşadığı cəmiyyətin qayğılarını əks etdirən, ziyalıların, söz xiridarlarının yaradıcılıqları haqqında cüzi təsəvvür yaratmağa qadir olan publisistik yazılarının əhəmiyyət kəsb edəcəyi danılmazdır.

[62] Bayram İsgəndərli. Qəlbinizin səsi həmişə təmiz qəlblərə çatsın. “Palitra” qəzeti. 25 iyul 2015-ci il. səh.15.

# NƏTİCƏ

Bayram İsgəndərli (İsgəndərov Bayram Məmməd oğlu) Azərbaycan ədəbiyyatının tərkib hissəsi olan Naxçıvan ədəbi mühitinin yetişdirdiyi yazıçı, dramaturq, publisistdir.

Bayram İsgəndərlinin bədii və publisist əsərləri "Naxçıvan", "Azərbaycan", "Ulduz", "Göyərçin", "Günəş", "Bala dili", "Neftçi", "Qobustan", "Əmək bayrağı", "Şərq qapısı", "Azərbaycan pioneri", "Ağrıdağ", "Nuh yurdu", "Ədəbiyyat qəzeti", "Kaspi", "Möhtəşəm Azərbaycan", "525-ci qəzet, "Palitra" kimi qəzet və jurnalların səhifələrində çap olunub.

Bayram İsgəndərlinin bədii və publisist əsərləri yalnız ölkəmizin dövrü mətbuatlarında deyil, qonşu ölkələrdə nəşr edilən "Körpü", "Firuğe-azadi" ("Azadlığın işığı") kimi jurnal və qəzet səhifələrində də işıq üzü görmüşdür.

Bayram İsgəndərlinin müəllifi olduğu kitablarındakı əsərlər janr baxımından müxtəlifdir. Yazıçının "Qarabağdan gələn duman" (2018) adlı kitabında müəllifin kiçik həcmli nəsr nümunələri olan hekayələri və pyesi yer alır. "Bir payız günü" (1981) kitabında yazıçının hekayələri və mənsur şeirləri əksini tapır. Bayram İsgəndərlinin "Məni ürəyinizdə

axtarın" (2023) kitabı isə müxtəlif ədəbi janrları özündə əks etdirir. Kitabda hekayələr, tərcümələr, publisistik yazılar, poetik nümunələr, bayatılar yer almaqdadır.

Bayram İsgəndərlinin "Cırtdanın yeni sərgüzəşti", "Xeyirxah kirpi", "Yalanlara inanmayın" pyesləri Naxçıvan Dövlət Kukla teatrında, "Siçanların hiyləsi", "Meşədə əhvalat" pyesləri Naxçıvan Dövlət Uşaq teatrında səhnələşdirilmişdir.

# ƏDƏBİYYAT

Bayram İsgəndərli, Bu qatar hara gedir? Hekayələr. Bakı, “Elm və təhsil”, 2018. 200 səh.

Bayram İsgəndərli. Məni ürəyinizdə axtarın. Bakı, “Elm və təhsil”, 2023. 186 səh.

Bayram İsgəndərli. Çil xoruzun aqibəti. Nağıl. Bakı, “Elm və təhsil” nəşriyyatı, 12 səh.

Bayram İsgəndərli. Plutarxın ölümü // https://edebiyyatqazeti.az/news/proza/1842-plutarxin-olumu

Bayram İsgəndərli. Qarabağdan gələn duman. Bakı, “Elm və təhsil”, 2018. 88 səh.

Bayram İsgəndərli. Qorxaq ayı balası Toxmaq. Hekayələr. Bakı, “Elm və təhsil” nəşriyyatı, 2012. 84 səh.

Bayram İsgəndərli. Səmimiyyətin işığı. “Palitra” qəzeti. 2018. 6 noyabr. səh.15.

Bayram İsgəndərli. Qılıncını qoyma qına. “Şərq qapısı” qəzeti, 21 noyabr, 1998-ci il.

Bayram İsgəndərli. Salamat qal, gözəl Təbriz. “Körpü” jurnalı, mart, 2005-ci il.

Bayram İsgəndərli. Bu torpağı qoyub hara gedirsən. “Körpü” jurnalı, mart, 2005-ci il.

Bayram İsgəndərli. Sevgi məktubları. Bakı, “Nurlan”, 2004. 32 səh.

Bayram İsgəndərli. Bülbül. “Şərq qapısı” qəzeti, yanvar, 2000-ci il.

Bayram İsgəndərli. Uşaqlar üçün pyeslər. Bakı, “Elm və təhsil” nəşriyyatı, 2023. 144 səh.

Bayram İsgəndərli. Vaxtla üz-üzə. Bakı, “Yurd”, 1999. 68 səh.

Bayram İskəndərov. Bir payız günü. Hekayə və mənsur şeirlər. Bakı, “Yazıçı”, 1981. 78 səh.

Bayram İskəndərov. Balaca nağılçı. Hekayələr. Bakı, “Gənclik”, 1988. 48 səh.

Bayram İskəndərov. Günəş həmişə olacaq. Bakı, “Gənclik”, 1984. 72 səh.

Bayram İskəndərov. Yeddi ilin ayrılığı. Hekayələr. Bakı, “Yazıçı”, 1990. 128 səh.

Cəfər Xəndan. Ədəbiyyat nəzəriyyəsi. Bakı, “Azərnəşr”, 1958, 287 səh.

Mir Cəlal, Pənah Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı, “Maarif”, 1988, 280 səh.

Salidə Şərifova. Bayram İsgəndərlinin mənsur şeirlərində ictimai-siyasi, məhəbbət və təbiət problematikası. “Elm və Təhsil” Beynəlxalq elmi-pedaqoji, ictimai-siyasi, ədəbi-bədii, publisistik qəzet. № 29 (329) 31 oktyabr, 2017-ci il, 24 səh. səh.16.

Salidə Şərifova. Bayram İsgəndərlinin mənsur şeirlərində ictimai-siyasi, məhəbbət və təbiət problematikası // http://zim.az/naxcivan/3188-bayram-sgndrlnn-mnsur-erlrnd-ctma-syas-mhbbt-v-tbt-problematkasi.html

Tehran Əlişanoğlu. Kitablar aləmində nələr baş verir // https://literature.az/?page=339&newsId=115679&lang=aze

**“Sənətkarın elmi pasportu” seriyasından çap olunmuş kitablar**

1. Əbdürrəhim bəy Haqverdiyev. Həyatı və yaradıcılığı (kollektiv). Bakı, “Elm və təhsil”, 2018, 332 s.

2. Yadigar Əsgərova. Səməd Mənsur. Həyatı və yaradıcılığı. Bakı, 2019. 176 s.

3. Böyük Azərbaycan şairi İmadəddin Nəsimi (kollektiv monoqrafiya). Bakı, “Elm”, 2019, 400 s.

4. Firudin Qurbansoy. İmadəddin Nəsimi. Bakı, “Elm”, 2019, 136 s.

5. Lətifə Mirzəyeva. Kərim Məşrutəçi Sönməz. Bakı, “Elm və təhsil”, 2019, 184 s.

6. Akademik Məmməd Cəfər Cəfərov: şəxsiyyəti və yaradıcılığı (kollektiv monoqrafiya). Bakı, “Elm və təhsil”, 2019, 208 s.

7. Abid Tahirli. Ceyhun Hacıbəylinin həyat və yaradıcılıq yolu. Bakı, “Elm və təhsil”, 2019, 344 s.

8. Uşaq ədəbiyyatında Xanımana Əlibəyli imzası (kollektiv monoqrafiya). Bakı, “Elm və təhsil”, 2020, 148s.

9. Əfzələddin Xaqani. Həyatı və yaradıcılığı (kollektiv monoqrafiya). Bakı, “Elm və təhsil”, 2020, 395 s.

10.Mehman Həsənli. Çingiz Aytmatov fenomeni və Azərbaycan. Bakı, “Elm və təhsil”, 2020, 406 s.

11.Almaz Ülvi. Əlişir Nəvainin əsri və nəsri (elmi-filoloji və dini-təsəvvüf əsərləri). B., “Elm və təhsil”, 2020, 570 s.

12.İslam Qəribli. Məhəmməd Hadi: həyatı və yaradıcılığı. Bakı, “Elm və təhsil”, 2020, 570 s.

13.Elmira Babayeva. Mövlud Süleymanlı: həyatı və yaradıcılığı. Bakı, “Elm və təhsil”, 2020, 204 s.

14.Lətifə Mirzəyeva. Həsən Məcidzadə Savalan: həyatı və yaradıcılığı. Bakı, “Elm və təhsil”, 2020, 200 s.

15.Solmaz Daşdəmirova. Pərvin Etisaminin həyat və yaradıcılığı. Bakı, “ULU” İKF, 2020, 68 s.

16.Teymur Əhmədov. Nəriman Nərimanov (həyatı, mühiti və ədəbi-bədii yaradıcılığı). Bakı, “Nurlar”, 2020, 552 s.

17.Əlizadə Əsgərli. Teymur Əhmədov: ədəbiyyat və mətbuat xadimi. Bakı, “Nurlar”, 2020, 338 s.

18.Muxtar Auezov: həyatı və yaradıcılığı (kollektiv). Bakı, “Elm və təhsil”, 2020, 180 s.

19.İsa Həbibbəyli, İsmixan Osmanlı. Qabdulla Tukay və Azərbaycan. Bakı, “Elm və təhsil”, 2021, 536 s.

20.Bədirxan Əhmədli. Rabindranat Taqor: Yeni Hindistanın manifesti. Bakı, “Elm və təhsil”, 2021, 372 s.

21.Xalq şairi Sabir Rüstəmxanlı: həyatı və yaradıcılığı (kollektiv). Bakı, “Elm və təhsil”, 2021, 484s.

22.Salidə Şərifova. Fərəc Fərəcov yaradıcılığının problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri. Bakı, “Qanun”, 2021, 164 s.

23.İsa Həbibbəyli. Molla Pənah olan Vaqif. Bakı, “Elm və təhsil”, 2021, 160 s.

24.Bəsirə Əzizəli. Məhəmməd İqbal. Eşq və düşüncə şairi. Bakı, “Elm və təhsil”, 2021, 228 s.

25.Nizami Gəncəvi: həyatı və yaradıcılığı (kollektiv). Bakı, “Elm”, 2021, 982 s.

26.Qəndab Haqverdi. Fədai Şair Qaflantının həyatı və sənəti. Bakı, 2022, 232 s.

27.İsa Həbibbəyli. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-maarifçi fəaliyyəti. Bakı, “Elm və təhsil”, 2022, 84 s.

28.Mahmizər Mehdibəyova. Zeynalabdin Marağalının həyatı, mühiti və yaradıcılığı. Bakı, “Elm və təhsil”, 2022, 178 s.

29.İslam Qəribli. Xurşidbanu Natəvan: həyatı və yaradıcılığı. Bakı, “Elm və təhsil”, 2022, 280 s.

30.İsa Həbibbəyli. Akademik Məmməd Cəfər Cəfərovun həyatı və bədii yaradıcılığı. Bakı, "Elm və təhsil", 2022, 152 s.

31.Molla Pənah Vaqif. Həyatı və yaradıcılığı. Bakı, "Elm və təhsil", 2022, 342 s.

32.Əlizadə Əsgərli. Bəxtiyar Vahabzadə (həyatı, mühiti və yaradıcılığı). Bakı, "Elm və təhsil", 2022, 556 s.

33.İsa Həbibbəyli. Hüseyn Cavid (həyatı və sənəti). Bakı, "Elm və təhsil", 2022, 104 s.

34.Gülçin Babayeva. Azərbaycan poeziyasının XV əsr mərhələsi: Cahanşah Həqiqi və Həbibi. Bakı, "Elm", 2022, 160 s.

35.Səadət Vahabova. Ömər Faiq Nemanzadə: həyatı və yaradıcılığı. Bakı, "Elm və təhsil", 2022, 164 s.

36.Elnarə Qaragözova. Yunus Oğuz: həyatı və yaradıcılığı. Bakı, "Elm və təhsil", 2022, 118 s.

37.Bahar Bərdəli (Məmmədova). Elçin İsgəndərzadə: həyatı, yaradıcılığı. Bakı, "Vektor" Beynəlxalq Nəşrlər Evi. 2023, 160 s.

38.Kifayət Məmmədova. Qulamrza Səbri Təbrizinin elmi-bədii fəaliyyəti. Bakı, "OPTİ-MİST" MMC çap mərkəzi", 2022, 174 s.

39.Əmir Xosrov Dəhləvi (kollektiv). Bakı, “Elm və təhsil”, 2022, 184 s.

40.Baba Babayev. Həsən Seyidbəyli: həyatı və nəsr yaradıcılığı. Bakı, “Elm və təhsil”, 2022, 220 s.

41.Abid Tahirli. Məhəmməd Altunbayın həyatı və yaradıcılığı. Bakı, “Xəzər Universiteti Nəşriyyatı”, 2023, 136 s.

42.Akademik Kamal Talibzadə–100. Bakı, “Elm və təhsil”, 2023, 288 s.

43.Uşaq ədəbiyyatında Tofiq Mahmud imzası (Kollektiv). Bakı, “Elm və təhsil”, 2023, 170 s.

44.Şahbaz Şamıoğlu (Musayev). Əhməd Ağaoğlu: həyatı, mühiti, nəsri və epistolyar irsi. Bakı, “Elm və təhsil”, 2023, 172 s.

45.Vaqif Yusifli. Poeziyamızın ağ çiçəyi Nurəngiz Gün. Bakı, “Elm və təhsil”, 2023, 262 s.

46.Safurə Quliyeva. Qasım Qasımzadənin yaradıcılıq yolu. Bakı, “Elm”, 2023, 236 s.

47.Lütviyyə Əsgərzadə. Şeyx Məhəmməd Rasizadə. Bakı, 2024.

48.Elnarə Qaragözova. Yusif Səmədoğlunun həyatı və yaradıcılığı. Bakı, 2024, 132 s.

49.Lətifə Mirzəyeva. Mərziyə Əhmədi. Üskui dalğa: həyatı və yaradıcılığı. Bakı, 2024, 200 s.

50.Həmid Araslı. Böyük Azərbaycan şairi Füzuli. Füzuli kitabxanası–4. Bakı, “Elm”, 2024, 352 s.

51.Salidə Şərifova. Leyla Əliyevanın poetik dünyası. Bakı, “Elm və təhsil”, 2024, 280 s.

52.Asif Rüstəmli. Cəmo bəy Cəbrayılbəyli: həyatı və bədii yaradıcılığı. Bakı, “Elm və təhsil”, 2024, 204 s.

53.Təranə Aslanova. Mirzə Bala Məhəmmədzadənin həyatı, ədəbi-elmi yaradıcılığı. Bakı, “Elm və təhsil”, 2023, 154 s.

54.Salidə Şərifova. Bayram İsgəndərlinin həyatı, bədii yaradıcılığı və publisistikası. Bakı, “Elm və təhsil”, 2024, 80 s.

SALİDƏ ŞƏMMƏD QIZI ŞƏRİFOVA

# BAYRAM İSGƏNDƏRLİNİN HƏYATI, BƏDİİ YARADICILIĞI VƏ PUBLİSİSTİKASI

**“Sənətkarın elmi pasportu” – 54**

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***İnal Məmmədli***

**Üz qabığının dizayneri: Zahid Məmmədov**
**Texniki redaktor: Rövşanə Nizamiqızı**

Çapa imzalanmış **24.06.2024.**
**Şərti çap vərəqi 6**
**Sifariş № 240**
Kağız formatı **60x84 1/16**. Tiraj **1000**

*Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Тел: 497-16-32; 050-311-41-89*
*Ünvan : Bakı, içərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*